# HƏYAT BİLGİSİ

# 3

Dərslik







# Azərbaycan Respublikasının
# Dövlət Himni

**Musiqisi** ***Üzeyir Hacıbəylinin,***
**sözləri** ***Əhməd Cavadındır.***

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

GÜLƏR MEHDİYEVA

# HƏYAT BİLGİSİ 3

*Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün*
*Həyat bilgisi fənni üzrə*

**DƏRSLİK**



Bu nəşrlə bağlı irad və təkliflərinizi
aspoligraf.ltd@gmail.com və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığa görə əvvəlcədən təşəkkür edirik!

«ASPOLİQRAF»
BAKI—2018

## KİTABIN İÇİNDƏKİLƏR


### DOĞMA MƏKTƏBİMİZ

1. Biz üçüncülərik ....................................6
2. Biz nələrə cavabdehik? ..........................8
3. Biz necə davranmalıyıq?.....................10
4. Kim əsl dost ola bilər? ........................12
5. Hörmət qazanmağın yolu....................14
6. Məktəbimizin ənənəsi ..........................16
7. Azər nənəsini necə xilas etdi? .............18
8. Nəzakətli olaq ....................................20
9. Sağlamlığımızı qoruyaq.......................22
10. Qəzalardan mühafizə vasitələri.........24
11. Şəkil və plan....................................25

### YER KÜRƏSİ – EVİMİZ

#### BİZİ ƏHATƏ EDƏN TƏBİƏT

12. Dünya okeanı ....................................28
13. Materiklər və adalar ..........................30
14. Hava okeanı.......................................32

#### TƏBİƏT HADİSƏLƏRİ

15. Külək necə yaranır? ..........................34
16. Yağış damlasının səyahəti .................36
17. Yer kürəsinin hərəkəti .......................38
18. Rənglər.............................................40
19. Təhlükəli təbiət hadisələri.................42

#### CANLILAR ALƏMİ

20. Canlıların müxtəlifliyi.......................44
21. Bitkilər həyat mənbəyidir..................47
22. Ağac əkməyə gedirik.........................49
23. Mikroorqanizmlər .............................51
24. Göbələklər.........................................53
25. Həşəratlar .........................................55
26. İnsan ətrafı necə dərk edir? ...............57
27. Texnogen hadisə
və canlılar aləmi ....................................59

### AZƏRBAYCAN – YURDUM MƏNİM

28. Müstəqil Azərbaycan.........................62
29. Qədim Azərbaycan............................64
30. Azərbaycan ordusu............................66
31. Qonşularımız.....................................68
32. Azərbaycanın təbiəti..........................70
33. Doğma Xəzər ....................................72
34. Bol nemətli yurdumuz.......................74

### DƏYƏRLƏR

35. İnsan və cəmiyyət.............................78
36. Bayramlarımız...................................80
37. Qayda və qanun.................................82
38. Yarımçıq qalmış tikmə ......................84
39. Mədəni irsimizi qoruyaq ...................86
40. Dünya dinləri....................................88
41. Ailə büdcəsi......................................90
42. Xalqların ünsiyyət qaydaları .............92
43. Yay tapşırıqları .................................94


---

**Dərslikdə istifadə olunmuş şərti işarələr**



**Motivasiya**



**Düşünək**



**İcra edək**



**Yaxşı haldır**



**Yaxşı deyil**



**Sual və tapşırıqlar**



**Unutma**



**Maraqlıdır**



**Hikmətli sözlər**



**Tapmacalar**

# Doğma məktəbimiz

1. Biz üçüncülərik
2. Biz nələrə cavabdehik?
3. Biz necə davranmalıyıq?
4. Kim əsl dost ola bilər?
5. Hörmət qazanmağın yolu
6. Məktəbimizin ənənəsi
7. Azər nənəsini necə xilas etdi?
8. Nəzakətli olaq
9. Sağlamlığımızı qoruyaq
10. Qəzalardan mühafizə vasitələri
11. Şəkil və plan



# 1. BİZ ÜÇÜNCÜLƏRİK



***İlk dərs gününü nə üçün Bilik günü adlandırırlar? Bu sualın cavabını yəqin ki, hamınız bilirsiniz. Bu gün hər bir şagird yeni biliklər, bacarıqlar qazanmaq üçün daha bir addım atıb bir sinif də yüksəlir.***

**Yeni biliklər qazanmağa hazırıq.** İlk dərs gününü uşaqlar, valideynlər, müəllimlər səbirsizliklə gözləyirlər. Həmin gün minlərlə uşaq məktəbə üz tutur. Budur, artıq məktəbdəyik. Hamının üzündə sevinc var. Sinif yoldaşlarımızla, müəllimimizlə görüşürük. Yoldaşlarımız yay tətili müddətində xeyli dəyişiblər. Hamımız böyümüşük. Artıq yolu keçərkən əlimizdən tutmurlar. Çantamızı, «istidir» deyib çıxardığımız üst geyimimizi özümüz daşıyırıq. Mağazadan aldığımız şirniyyatları diqqətlə seçirik. Mütləq istifadə müddətinə baxırıq. Ətrafdakı naməlum əşyalara toxunmuruq. Tanımadığımız insanlarla ünsiyyətdə ehtiyatlı davranırıq. İctimai nəqliyyatda davranış qaydalarına əməl edirik. Çünki başqa sərnişinlərin rahatlığını pozmaq istəmirik.

***Nəqliyyatda davranış qaydalarını şərh et.***




*İlk dərs günü*

**Yol hərəkəti qaydalarını bilirik.** Yolu keçəndə çox diqqətli oluruq. Çünki bilirik ki, ehtiyatsız olsaq, həyatımız üçün təhlükə yarana bilər. Yolu yalnız piyada keçidlərindən keçirik. Yollarda piyada keçidini bildirən yol nişanları qoyulur. Biz yolun kənarında dayanıb işıqforun piyadalar üçün yaşıl işığının yanmasını gözləyirik. Yolu yalnız yaşıl işıq yananda keçirik. İşıqfor olmayan yerlərdə piyada zolağını keçərkən ikiqat ehtiyatlı oluruq.

***Yol hərəkəti qaydalarının əhəmiyyətini izah et.***

Biz indi bir yaş da böyümüşük. Bir azdan məktəbə özümüz sərbəst gedib-gələcəyik. Ona görə də ilk növbədə, yol hərəkəti qaydalarını daha yaxşı öyrənməliyik.

**Yol nişanlarını öyrənirik.** Yollarda xəbərdarlıq, qadağan, servis və digər nişanlar qoyulur.

***Xəbərdarlıq nişanları*** yolda təhlükə barədə məlumat verir. Bu nişanlar, əsasən, qırmızı haşiyəli ağ üçbucaq formasında olur.

***Yol nişanlarının əhəmiyyətini izah et.***






*Yol nişanları*

Yolda qırmızı haşiyəli dairə formasında nişan görsən, bil ki, bu ***qadağan nişanıdır***. Qadağan nişanları qoyulduğu yerlərdə müəyyən hərəkəti (məsələn, girişi, piyadaların, yaxud avtomobillərin hərəkətini və s.) qadağan edir.

***Servis nişanları*** yaşayış məntəqələrində insanların yolda ehtiyac duya biləcəkləri yerlərin (yeməkxana, xəstəxana, yanacaqdoldurma məntəqəsi, polis idarəsi və s.) yanında və ya onların istiqamətində quraşdırılır. Servis nişanları düzbucaq formada olur. Onların enli mavi haşiyəsi vardır. Müvafiq rəmzlər (çəngəl-bıçaq, çarpayı, telefon və s.) ağ fon üzərində təsvir olunur.

***Məlumatverici-göstərici nişanların*** düzbucaq forması vardır. Bu nişanlar yolun vəziyyəti, yaşayış məntəqələrinin adları və başqa məlumatları bildirmək üçün qoyulur.



***1. Piyadalar üçün işıqfor olmayan yerlərdə yolu necə keçmək olar? Fikrini izah et.***
***2. Tanıdığın yol nişanlarını sadala və onların mənasını açıqla.***

## 2. BİZ NƏLƏRƏ CAVABDEHİK?



***Valideynlərimiz və dövlətimiz bizim sağlamlığımız və təhsilimiz üçün cavabdehlik daşıyır. Sənin də cavabdeh olduğun nələrsə varmı? Sən heç bu barədə düşünmüsən?***

**Biz dövlətimiz üçün dəyərliyik.** Gözəl məktəbimiz, rahat sinif otağımız, maraqlı dərsliklərimiz var. Bizim təhsil almaq, sağlamlığımızı qorumaq, yaradıcılıqla məşğul olmaq, istirahət etmək və başqa hüquqlarımız vardır. Biz öz hüquqlarımızdan tam istifadə edirik. Yaxşı oxuyuruq, sağlamlığımızı qoruyuruq, sinfimizin, məktəbimizin şərəfini uca tuturuq.

***Uşaqların hansı hüquqları var?***



Dövlətimiz bizim qayğımıza qalır. Uşaqların bütün hüquqları dövlət tərəfindən qorunur. Çünki bizim hər birimiz dövlətimiz üçün dəyərliyik. Dövlətimiz uşaqların təhsil alması, sağlam, layiqli vətəndaş kimi böyüməsi üçün məsuliyyət daşıyır. Buna görə uşaqlara hər cür şərait yaradılır, onlar pulsuz dərsliklərlə təmin edilir. Uşaqların hüquqlarının qorunması üçün müxtəlif dövlət sənədləri qəbul



*Sinif otağımız*

edilir. «Uşaq Hüquqları haqqında Azərbaycan Respublikasının Qanunu» ölkəmizdəki uşaqların hüquqlarının müdafiəsinə yönəlmiş əsas sənəddir. Bu qanunda uşaqların bütün hüquqları öz əksini tapmışdır. Uşaq hüquqlarının müdafiəsinə xidmət edən Beynəlxalq sənədlər də vardır. «Uşaq Hüquqları Konvensiyası», «Uşaq Hüquqları Bəyannaməsi» belə sənədlərdəndir.

***Dövlətimiz uşaqların hüquqlarının qorunması ilə bağlı hansı qanunu qəbul etmişdir?***



**Biz nələrə qayğı ilə yanaşırıq?** Məktəbimizi, sinfimizi və dərsliklərimizi çox sevirik. Məktəbimiz bu il keçən dərs ilində olduğundan daha səliqəli və gözəl görünür. Çünki yay tətili zamanı məktəbi təmir etmiş, gəlişimiz üçün hazırlamışlar. Müasir tələblərə cavab verən gözəl sinif otağımız var. Günümüzün xeyli hissəsi sinif otağımızda keçir. Sinfimizdə pəncərənin kənarına otaq bitkiləri əkilmiş dibçəklər düzmüşük. Əgər sinif otağınızda gül dibçəkləri yoxdursa, məsləhət görürük ki, qəşəng güllər seçib dibçəklərdə əkəsiniz. Bitkilər otaqdakı havanın təmizliyinə kömək etməkdən başqa, həm də gözəllikləri ilə göz oxşayır. Gülləri dibçəklərdə əkməklə iş bitmir. Siz gərək bu güllərin qayğısını çəkəsiniz. Dibçəklərdə əkdiyimiz çiçəklər, məktəbimizin həyətində qulluq etdiyimiz gül ləkləri, bəslədiyimiz heyvanlar bizim qayğımız olmadan yaşaya bilməz. Biz əkdiyimiz bitkilərə, bəslədiyimiz heyvanlara, bir sözlə, qayğısını çəkdiyimiz hər şeyə görə cavabdehik.

***Otaq bitkilərinin əhəmiyyəti nədir?***



Sinfimizdəki şəkillər, xəritələr, stol-stullar və digər əşyalar hamımıza aiddir. Biz sinif otağımıza, dərsliklərimizə qayğı ilə yanaşırıq. Bilirik ki, biz dördüncü sinifdə oxuyanda bu dərsliklərdən üçüncü sinfə keçən şagirdlər istifadə edəcəklər. Ona görə də dərsliklərimizə xüsusi qayğı ilə yanaşırıq. Çirklənməməsi üçün onlara üz çəkir, içərisini qələmlə, flomasterlə yazmırıq. Bizim sinifdə heç bir şagird dərsliyinin vərəqlərini cırmır. Hamımız bilirik ki, yalnız dərsliyin deyil, ümumiyyətlə, kitabların vərəqlərini cırmaq olmaz.

Biz bir məktəbli kimi dövlətimizin qayğısını dəyərləndirməli və ona layiq vətəndaşlar olmalıyıq.

***1. Uşaq hüquqları hansı sənədlərdə öz əksini tapır? Həmin sənədlərin adlarını dəftərində yaz.***
***2. Öz sinif otağınızı necə görmək istərdin? Fikirlərini yaz.***
***3. Otaqda gül dibçəkləri olmasının nə kimi faydaları var? Düşüncələrini yoldaşlarınla bölüş.***



## 3. BİZ NECƏ DAVRANMALIYIQ?



***Bir kollektivin içərisində olub ondan kənarda qalmaq olarmı? Mətni oxusan, bu suala cavab taparsan.***

**Kim haqlıdır?** Dərslərin birində belə bir sual ətrafında müzakirə aparırdıq: qaydaları pozan şagirdlərə öz şagird yoldaşları da münasibət bildirməlidirlərmi? Uşaqlar müxtəlif fikirlər söylədilər. Sinif yoldaşlarımızdan çoxu dedi ki, əgər sinif yoldaşım, yaxud dostum qaydanı pozarsa, onu intizama dəvət etmək lazımdır.

Müəllim bizə sual verdi:

– Bəs sinif yoldaşınız, dostunuz olmayan bir şagird sizə hərəkətinizə görə irad tutsa, sizi intizama dəvət etsə, buna necə baxardınız?

Bu suala uşaqlar müxtəlif cavablar verdilər. Onların çoxu bu fikirdə idi ki, yalnız şagird yoldaşlarının ona irad tutmağa haqqı var.

Bizim müzakirəmizi dinləyən müəllimimiz dedi:

– Düzdür, siz ailə üzvləriniz, dostlarınız və sinif yoldaşlarınızla daha çox ünsiyyətdə olursunuz. Amma əslində ətrafınız düşündüyünüzdən daha genişdir. Çünki siz evdən, məktəbdən başqa idman zalında, əyləncə mərkəzində, nəqliyyatda və digər yerlərdə olursunuz. Orada tanıdığınız və tanımadığınız çoxlu insanlarla rastlaşırsınız. Tutaq ki, parkda gəzdiyiniz zaman görürsünüz ki, bir uşaq o birini incidir. Yaxud bir şagird sizin gözlərinizin qarşısında ağacın budağını qırır. Onların hərəkəti xoşunuza gəlməsə də, siz heç nə demirsiniz. Düşünürsünüz ki, bunun sizə dəxli yoxdur. Lakin incidilən uşaq sizin dostunuz, yaxud sinif yoldaşınız olarsa? Budağı qırılan ağac sizin əkdiyiniz meyvə ağacı olsa necə? Özünüzü necə hiss edərdiniz? Yəqin ki, çox pis! Bu zaman siz mütləq ona öz iradınızı bildirə-



***Belə vəziyyətlə qarşılaşsan, necə hərəkət edərsən?***









*Bu hərəkətləri etmək yaxşı deyil.*

çəksiniz. Tanımadığınız biri də hərəkətlərinizdən ziyan çəkərsə, o zaman onun sizə irad bildirməsi də normaldır. Ona görə də olduğunuz hər yerdə gərək elə davranasınız ki, sizin də hərəkətləriniz başqalarına ziyan vurmasın. Bir hərəkəti etməzdən əvvəl düşünməlisiniz: mən bu hərəkəti etsəm, ətrafdakı insanlar üçün narahatlıq yaranmaz ki? Belə olarsa, heç vaxt, heç kimdən irad eşitməz, pərt olub utanmazsınız.

**Məktəb mühiti necə yaranır?** Məktəbdə nizam-intizam, təmizlik, səliqə-sahman burada oxuyan şagirdləri intizamlı, səliqəli olmağa dəvət edir. Mehribanlıq, böyüklərə hörmət, kiçiklərə qayğı mühitində böyüyən uşaq ətrafındakı insanlarla mədəni rəftar edir. Onları incidən hərəkətlərə yol vermir. Qorxaqlıq, lovğalıq kimi mənfi keyfiyyətlərdən uzaq olur. Dalaşqan uşaqlarla bir yerdə vaxt keçirmək isə uşağın tərbiyəsinə mənfi təsir göstərə bilər.



*Biz bir komandayıq*

Məktəbdə müxtəlif yaşda uşaqlar var və onlar bir-birindən nümunə götürürlər. Ona görə də kollektivdə nizam-intizamlı olmaq, hər şeydə yaxşı nümunə göstərmək hər bir şagirdin borcudur. Şagird yoldaşlarını intizama dəvət etmək də onun borcudur. Bununla siz məktəbinizdə sağlam mühitin yaranmasında və qorunmasında iştirak etmiş olursunuz.

***Öz adına layiq işlər gör ki sən,***
***Axırda utanma xəcalətindən.***
***Nizami Gəncəvi***



***1. Məktəbinizdə mühitin sağlamlığı kimlərdən asılıdır? Fikrini əsaslandır.***

***2. Məktəbinizdə bəyəndiyin və xoşuna gəlməyən nədir? Düşüncələrini dəftərində yaz.***

***3. Nizami Gəncəvinin mətnin sonunda verilmiş sözlərinin mənasını açıqla və dəftərində yaz.***

# 4. KİM ƏSL DOST OLA BİLƏR?




***Dostunu göstər, sənin kim olduğunu deyim.***




**Dostu necə seçməli?** Ata-anamızı, bacı-qardaşımızı, yaxın qohumlarımızı özümüz seçmirik. Bu insanlar doğulduğumuz vaxtdan ətrafımızda olurlar. Onlar bizi sevir, qayğımızı çəkirlər. Dostu isə özümüz seçirik. Ona görə də dostu seçəndə çox diqqətli olmaq lazımdır. Dostun olan insanı necə tanıya bilərsən?

Məsələn, dost saydığın uşaq sənə təklif edir ki, onunla birlikdə oyun zalına gedəsən. Sən isə dərslərini hazırlamalı olduğunu deyirsən. O bunu qorxaqlıq hesab edib sənə gülür. Sən pərt olursan. Qorxaq olmadığını sübut etmək üçün ona qoşulub oyun zalına gedirsən. Evə gec və yorğun gəlirsən. Dərslərini hazırlamamış yatmalı olursan. Səhəri gün dərslərə hazır olmadığına görə özünü narahat hiss edirsən. Amma dostun deyir ki, belə şeylərə görə narahat olmağa dəyməz. Belə dostdan insana heç vaxt xeyir gəlməz.

**Əsl dost necə olur?** Səni çox sevdiyini, hər hərəkətini bəyəndiyini söyləyən insan, hələ dost deyil. Dost sənə irad tuta bilər, səhvinə görə səni tənqid edə bilər. Dost bildiyin insan səni pis hərəkətlərdən çəkindirməyə çalışmırsa, deməli, o, dostun deyil. Dost həm çətin, həm də xoş gündə insanın yanında olur.

Bu əlamətlərinə görə dostu sadiq adlandırmaq olar:

1) Sən çətinə düşəndə o sənə arxa olur, hər işdə kömək edir, ruhdan düşməyə qoymur.
2) Yaxşı nəyi varsa, səninlə bölüşdürməyə hazır olur.
3) Düz hərəkət etmədiyini görəndə səhvini sənə deyir.
4) Başqalarına səni pisləməyə imkan vermir. Sənə öz ailə üzvü kimi yanaşır.

**Əsl dostu necə tapmaq olar?** Sinifdə uşaqlar bir-biri ilə dost olsalar, çətinlik-

lərin öhdəsindən daha asanlıqla gələrlər. Bir-birinə kömək edər, arxa olarlar. Yəqin ki, sinif yoldaşlarının arasında sadiq dost ola biləcək uşaqlar var. Sənə, sadəcə, onları aşkar etmək lazımdır. Həqiqi dostu tapmaq üçün biz özümüz həqiqi dost olmağı bacarmalıyıq. Dost bildiyimiz insandan sadiqlik gözlədiyimiz kimi, özümüz də ona sadiq olmalıyıq.

Dostluq təvazökarlıq, dözüm, nəzakət və sadəlik tələb edir. Belə keyfiyyətləri olmayan insan əsl dost ola bilməz.




## Sən bu uşaqlara nə məsləhət görərdin?



1. *Səncə, dostluqda ən vacib keyfiyyət nədir? Fikrini əsaslandır.*
2. *Dostun çoxdurmu? Səncə, onları səninlə dostluğa cəlb edən nədir? Fikrini izah et.*
3. *Şəkildəki uşaqların fikirlərinə münasibət bildir.*

# 5. HÖRMƏT QAZANMAĞIN YOLU



***İstərdinmi ki, ətrafındakı insanlar sənə hörmət etsinlər? Bilirsənmi buna necə nail olmaq olar? Bu hekayədə həmin sualın cavabı var.***

**Özünəinam.** Hər bir insanın özünəməxsus xarakteri, bilik və bacarığı, qabiliyyəti olur. Ona görə də onun insanlara, hadisələrə öz münasibəti və ən əsası, özünə inamı olmalıdır. Özünəinam insan üçün çox vacib keyfiyyətdir. Bu keyfiyyət insanın uğur qazanmasının başlıca şərtidir. Özünə inanan insan güclü olur. Əsl güc qol gücü deyil, əsl güc bilik, bacarıqdır.

Birinci sinifdə oxuyanda sinfimizə əlil arabasında bir qız gəldi. Çox keçmədi ki, həmin qız hamının sevimlisi oldu. İndi onun ətrafında həmişə uşaqlar toplaşırlar. Çünki o, mehriban, ağıllı və çox məlumatlı qızdır. Yaxşı dama oynayır, riyaziyyatdan

***Sənin hörmət etdiyin bir insan varmı? Ona hansı keyfiyyətlərinə görə hörmət edirsən?***





*«Yaradıcı əllər» dərnəyində məşğələ zamanı*

tapşırıqları hamıdan tez və düzgün yerinə yetirir. Çünki o özünə inanır və güvənir. Elə buna görə də çətin tapşırıqların öhdəsindən bacarıqla gəlir. Dərslərinə həmişə hazırdır və çox fəaldır. Çətinliyi olan sinif yoldaşlarına da kömək edir. Qrup işlərində onunla bir yerdə işləmək hamıya xoşdur. O bu keyfiyyətləri ilə uşaqların hörmətini qazanıb. Hamı onunla dostluq etmək istəyir. Sinfimizdə heç kim ona zəif, xəstə kimi baxmır. Əksinə, onu əlil arabasına ehtiyacı olmayan bir çox yoldaşlarımızdan daha güclü hesab edirik. Bilirik ki, ona həmişə güvənmək olar. Demək, özünəinam, çalışqanlıq və təvazökarlıq kimi keyfiyyətlər insana hörmət qazandırır.

**Özünəinam və özündənrazılıq.** Göründüyü kimi, özünəinam çox yaxşı keyfiyyətdir. Amma bəzi uşaqlar özünəinamla özündənrazılığı qarışdırırlar. Belələri özünü başqalarından artıq tutur, hamıdan zirək və bacarıqlı olduqlarını düşünürlər. Özündənrazı insan heç bir tənqidi qəbul etmir. O, səhv hərəkət etsə belə, səhvini boynuna almır. Nəyin bahasına olursa-olsun haqlı olduğunu sübut etməyə çalışır. Ona elə gəlir ki, səhvini boynuna alsa, ətrafındakı insanlar onu zəif hesab edərlər. Əslində isə güclü insan səhvini etiraf etməkdən çəkinmir. O, başqalarının fikrinə diqqətlə qulaq asır. Hər hansı məsələdə yanıldığını başa düşürsə, dərhal səhvini düzəldir.

***Özünəinamla özündənrazılıq arasındakı fərqi izah et.***



Güclü insan heç kimin qəlbinə dəymir. Əgər bilmədən birini incidirsə, günahını boynuna alıb üzr istəyir. Ətrafındakılara belə münasibət göstərən insana hamı hörmət edir. İnsanların hörmətini qazanmağın bir yolu da budur.



1. ***Özünəinam insana nə üçün lazımdır? Yoldaşlarınla müzakirə et.***
2. ***Səncə, güclü insan ən çox hansı keyfiyyəti ilə seçilir? Fikirlərini nümunələrlə əsaslandır.***
3. ***Özündənrazılıq nə üçün yaxşı keyfiyyət hesab olunmur? İzah et.***

# 6. MƏKTƏBİMİZİN ƏNƏNƏSİ



***Müəllimimiz həmişə deyir ki, ənənə olan yerdə uğur da olacaq. Ənənə nədir? Onun uğurla nə əlaqəsi ola bilər? Bilmək istəyirsənmi? O zaman bu mətni oxu.***

**Bizim yaxşı işlərimiz.** Bəzi adətləri nəsillər bir-birinə ötürərək unudulmağa qoymurlar. Bu cür adətlər ənənə adlanır. Məktəbimizin bir ənənəsi var. Hər ilin sonunda bütün müəllim və şagirdlər akt zalına toplaşır. Müəllimlər və ən fəal şagirdlər çıxış edirlər. Onlar həmin ildə məktəbimizdə, şəhərimizdə və ölkəmizdə baş verən əlamətdar günlərdən, məktəbimizin uğurlarından danışırlar. Şagirdlərin yaxşı işlərindən söz açırlar. Yaxşı iş deyəndə, yalnız dərslərdən əla qiymət almağı nəzərdə tutmuruq. Zəif oxuyan yoldaşlarına kömək etmək, özündən kiçiklərə qayğı göstərmək də yaxşı işdir. İdman yarışlarında sinfini, məktəbini təmsil etmək, məktəbin divar qəzetinə maraqlı məqalələr yazmaq da yaxşı işlərdir. Bu siyahını uzatmaq da olar.

***Sən daha hansı işləri yaxşı hesab edirsən?***



Çıxışlar, təbriklər bitəndən sonra ədəbiyyat dərnəyinin üzvləri şeir söyləyir, musiqi dərnəyində məşğul olan uşaqlar isə çalıb-oxuyurlar. Məktəbimizin bu



*Məktəbimizin gözəl ənənələri*

ənənəsi bizim çox xoşumuza gəlir.  Bu tədbirin sayəsində məktəbin bütün şagirdləri bir-birini tanıyır. Bir şagirdin yaxşı işlərindən hamı xəbər tutur.

**Ənənənin əhəmiyyəti.** Elə ona görə də hər kəs istəyir ki, onun uğurlarından, yaxşı işlərindən danışsınlar. Sinif yoldaşlarımızdan biri dama yarışında məktəb çempionu olmuşdur. Başqa bir sinif yoldaşımız gözəl rəsmlər çəkir. Hətta məktəbimizdə onun rəsmlərindən ibarət sərgi də təşkil edilib. Sərgiyə qonaqlar dəvət olunmuşdu. Qonaqların arasında rəssamlar da var idi. Rəsmlərə baxanlar dedilər ki, o, gələcəkdə yaxşı rəssam ola bilər. Ancaq bunun üçün tənbəllik etməməli, öz üzərində çox işləməlidir.

Yoldaşlarımızdan biri ikinci sinifdə şahmat üzrə məktəb çempionu olmuşdu. O zaman sinfimiz onunla fəxr edirdi. Bu il o, artıq şəhər birinciliyi uğrunda yarışların qalibi olmuşdur. İndi onunla yalnız sinfimiz deyil, bütün məktəbimiz fəxr edir. Biz belə çalışqan uşaqlardan nümunə götürürük. Onlar isə uğurlarına görə lovğalanmırlar. Başa düşürlər ki, əldə etdikləri uğurları qoruyub saxlamaq üçün daha yüksək nəticələr əldə etməli, əvvəlkindən də çox çalışmalıdırlar.

***Səncə, sinif yoldaşının uğurlarına görə nə üçün sevinmək lazımdır?***



Ənənələr yalnız məktəbdə olmur. Hər xalqın, hər şəhərin, hətta hər ailənin öz ənənələri olur. Bayram adət-ənənələrini, toy, yas mərasimlərinin keçirilmə qaydalarını xalqımız qoruyub nəsillərdən nəsillərə ötürür. Yaxşı ənənələr insanlarda yüksək mənəvi keyfiyyətlərin formalaşmasına təsir göstərir. Ona görə də çalışmaq lazımdır ki, yaxşı adətlər unudulmasın, nəsillərdən nəsillərə keçib ənənəyə çevrilsin.



***Ənənə qanun deyil, amma qanun qədər hökmü var.***



1. *Mətndən hansı nəticəni çıxardın? Fikirlərini dəftərində yaz.*
2. *Belə bir ənənənin sizin məktəbinizdə olmasını istərdinmi? Nə üçün? Fikrini əsaslandır.*
3. *Mətnin sonunda verilmiş hikmətli sözün mənasını açıqla.*

# 7. AZƏR NƏNƏSİNİ NECƏ XİLAS ETDİ?



***Bu keyfiyyət sayəsində özümüzün və yaxınlarımızın həyatını xilas edə bilərik. Hər bir insan bu keyfiyyəti özündə tərbiyə etməlidir. Bu hansı keyfiyyətdir? Hekayədə həmin keyfiyyətə malik olan bir uşaqdan danışılır.***

Bu yaxınlarda baş vermiş bir hadisə sinif yoldaşımız Azəri bütün məktəbdə tanıtdı. Hamı ona qəhrəman kimi baxırdı.

Azəri məktəbə həmişə nənəsi gətirib-aparır. Bir gün onu məktəbə nənəsi yox, anası gətirdi. Təəccübləndik. Azərin nənəsini yaxşı tanıyırdıq. O da hamımızın adını bilir və bizi xoş dillə dindirirdi. Azərin kefi yox idi. Ondan nənəsinin nə üçün gəlmədiyini soruşduq. Azər dedi ki, nənəsi xəstələnib. İndi xəstəxanadadır. Axşam halı pisləşib və onu xəstəxanaya aparıblar. Sonra nənə sağaldı və Azəri məktəbə yenə özü gətirdi. Sən demə, Azərin çətin anda özünü itirməməsi və sayıqlığı onu ölümdən xilas edib. Nənə əhvalatı bizə özü danışdı.

**Nənənin söylədikləri:** Axşam Azər bacısı Turanla televizorda maraqlı verilişə baxırdı. Oğlumla gəlinim evdə yox idilər, qonaq getmişdilər. Mən paltar ütüləyirdim. Qəfildən sinəmdə sancı hiss etdim. Bir anda əhvalım çox pisləşdi və özümü saxlaya bilməyib döşəməyə yıxıldım. Ütü paltarın üstündə qalmışdı. Paltar artıq yavaş-yavaş tüstüləməyə başlayırdı. Halım yox idi ki, uşaqları çağırım. Amma Azər yanıq qoxusunu hiss edib tez mən olan otağa gəldi. O özünü itirmədi. Dərhal ütünü şəbəkədən ayırdı. Onu paltarın üstündən götürüb kənara qoydu. Turan isə mətbəxə qaçdı, su gətirdi və tüstüləyən paltarın üstünə töküb onu söndürdü. Azər tez təcili yardımın nömrəsini (103) yığdı. Mənim vəziyyətimi və evin ünvanını





dəqiq dedi. Sonra zəng edib ata-anasını vəziyyətdən xəbərdar etdi. Az sonra həkim gəldi. Mənə ilk tibbi yardım göstərdi. Təcili yardım həkimi dedi ki, məni, əslində, o yox, Azər xilas edib. Çünki o, çətin vəziyyətdə özünü itirməyib.

Yaşından asılı olmayaraq hər bir insan müxtəlif çətin vəziyyətlərə düşə bilər. Məsələn, uşaq gəzinti zamanı böyüklərdən ayrı düşüb itə bilər, yaxud liftdə olarkən lift qəfildən dayana bilər. Ona görə də hər bir uşaq bunları bilməlidir:

Uşaq küçədə, böyük supermarketlərdə, metroda və başqa yerlərdə itərsə, qorxmamalıdır. Bu zaman yaxınlıqda görünən polis işçisinə, marketdə satıcıya, metroda metro işçisinə, bunlar olmadıqda isə topa halında dayanmış insanlara yaxınlaşaraq vəziyyəti onlara bildirmək lazımdır.

***İnsan daha hansı çətin vəziyyətlərə düşə bilər? Fikrini izah et.***



Liftdə olarkən lift qəfildən dayanarsa, qorxub özünü itirmək, liftin düymələrini oynatmaq olmaz. Bir çox liftlərdə binanın nəzarətçisi ilə əlaqə düyməsi olur. Bu düymə vasitəsilə nəzarətçini vəziyyətdən xəbərdar etmək, belə bir düymə yoxdursa, qapını döyüb köməyə çağırmaq lazımdır. Başqa gözlənilməz hallar da ola bilər. Bütün hallarda insan, ilk növbədə, təmkinli olmağa çalışmalıdır.

1. ***Sən Azərin başına gələnlərə oxşar hadisə ilə qarşılaşmısanmı? O zaman necə hərəkət etmisən? Bu barədə yaz.***
2. ***«Çətin vəziyyətə düşəndə insan, ilk növbədə, təmkinli olmalıdır» ifadəsini izah et.***
3. ***Gözlənilməz bir hadisə fikirləş. Həmin hadisəni qələmə al və ona başlıq ver.***



## 8. NƏZAKƏTLİ OLAQ



***Böyüklərimiz bizə nəzakətli olmağı tövsiyə edirlər. Çünki nəzakət çox yüksək mənəvi keyfiyyətdir. Bilirsənmi nəzakətli insanlar necə davranırlar? Bu hekayəni oxusan, nəzakətli davranış haqqında özün də nəticə çıxara bilərsən.***

**Səhvinə görə üzr istəmək eyib deyil.** Bu gün sinifdə çox maraqlı bir mövzunu müzakirə edirdik: «Kimi nəzakətli adlandırmaq olar?» Müzakirəyə səbəb iki yoldaşımız arasında baş verən bir narazılıq idi. Bir gün əvvəl sinif yoldaşımız Ayaz demişdi ki, o, «Dədə Qorqud» dastanını oxumaq istəyir. İnci bildirmişdi ki, evlərində «Dədə Qorqud» dastanı var. O, söz vermişdi ki, səhər məktəbə gələndə kitabı gətirəcək. Səhəri gün məktəbə gələn kimi Ayaz yaxınlaşıb İncidən kitabı istədi. Məlum oldu ki, İnci kitabı gətirməyib. O, kitabı nə üçün gətirmədiyini izah etmək istəyəndə Ayaz İnciyə qulaq asmadı, ona «sən yalançısan», – deyərək dönüb getdi. İnci inciyib ağlamağa başladı.



***Səncə, İnci kitabı gətirməyi unutduğunu deyəndə Ayaz necə hərəkət etməli idi?***

Zəng vuruldu. Hərə öz yerində əyləşdi. Müəllim sinfə girdi. İnci isə hələ də ağlayırdı. Müəllim ona yaxınlaşıb nə üçün ağladığını soruşdu. İnci cavab vermədi. Müəllim növbətçi şagirddən sinifdə nə baş verdiyini xəbər aldı. Növbətçi əhvalatı olduğu kimi müəllimə danışdı. Müəllim Ayazdan İnci ilə kobud rəftar etməsinin səbəbini soruşdu. Ayaz dedi:

– Söz verib əməl etməmək yalan danışmaqdır. Yalan danışmaq isə yaxşı keyfiyyət deyil. Mən yalan danışan insanlara hörmət etmirəm.

Müəllim onu dinlədikdən sonra dedi:

– İnci söylədimi ki, kitabı niyə gətirməyib? Bəlkə, elə bir hadisə baş verib ki, o, kitabı gətirə bilməyib.

Ayaz susub başını aşağı saldı. Axı o, İncinin sözünü ağzında qoymuş, kitabı nə üçün gətirmədiyini söyləməyə macal verməmişdi. Müəllim sözünə davam edib dedi:

– Nəzakətli insanlar həmsöhbətini sonadək dinləyir, onun sözünü yarıda kəsmirlər. Cavab verməzdən əvvəl düşünürlər. Belə edərsənsə, qarşındakı insanı nahaq yerə incitməz, özün də buna görə xəcalət çəkməli olmazsan. Əgər səhvən belə bir hərəkət etmisənsə, gərək mütləq həmin şəxsdən üzr istəyəsən.

Sonra dərsimizə davam etdik. Həmin gün müəllimimiz bizə nəzakətli davranış haqqında başqa şeylər də danışdı. Tənəffüsdə Ayaz İnciyə yaxınlaşıb dedi:

– Məni bağışla. Kobudluq etdim. Bir də belə olmayacaq.

İnci gülümsədi. Hamımız onun bununla nə demək istədiyini başa düşdük.

**Nəzakət qaydaları.** Nəzakətli olmağı hərə bir cür başa düşür. Kimi deyə bilər ki, oğlanlar üçün nəzakətli olmaq qızlarla yaxşı rəftar etməkdir. Nəzakətli qızlar isə davranışlarında çox zərif və təmkinli olurlar. Kimisi nəzakəti böyüklərdən qabağa keçməmək, onlara yol vermək kimi başa düşür. Əslində, bu fikirlərin hamısı doğrudur. Nəzakətli insan bunların hamısına əməl edir və heç vaxt heç kimə qarşı kobudluq etmir. Başqa sözlə desək, o, sözü və hərəkəti ilə heç kimi incitmir. Nəzakətli insanlar özlərindən böyüklərlə danışanda ona «sən» yox, «siz» deyə müraciət edirlər. Özlərinə aid olmayan söhbətlərə müdaxilə etmirlər.

Nəzakətli insan hansı ölkəyə gedirsə, hansı xalqın içərisində olursa, o xalqın ünsiyyət və davranış qaydalarına sayğı göstərir.

***Sən nəzakət qaydalarına daha nələri əlavə etmək istərdin?***

Nəzakət çox yüksək mənəvi keyfiyyətdir. Nəzakətli olmaq isə o qədər də çətin deyil. Bunun üçün, sadəcə, hər bir hərəkətində və sözündə diqqətli olmaq lazımdır.





***Şəkildə gördüklərini şərh et. Səncə, bu hərəkətlər də nəzakət qaydalarına aiddirmi?***

***Söz qılıncdan kəsərlidir.***

***1. Mətndən hansı nəticəni çıxardın? Fikirlərini şərh et.***
***2. Nəzakətli olmaq nə üçün vacibdir? Fikrini əsaslandır.***
***3. Nəzakətli insanın əlamətlərini yaz. Sonra yazdıqlarını yanında əyləşən yoldaşının yazdıqları ilə müqayisə et.***

# 9. SAĞLAMLIĞIMIZI QORUYAQ



***Deyirlər ki, sağlam olmağın birinci şərti sağlam həyat tərzidir. Bəs sağlam həyat tərzi necə olur? Bu mövzuda sağlam həyat tərzindən söhbət açılır. Oxusan, xeyli bilik əldə edərsən.***



*Faydalı qidalara üstünlük vermək lazımdır*



***Səncə, hansı qidaları faydalı hesab etmək olar?***

**Qidalanma mədəniyyəti.** Bəzi uşaqlar küçədə ayaqüstü qida qəbul etməyi vərdişə çevirmişlər. Amma küçədə ayaqüstü qidalanmaq orqanizm üçün zərərlidir. Vaxtı keçmiş qənnadı məmulatları, ərzaq məhsulları insanın zəhərlənməsinə, yaxud onun həzm orqanlarının xəstəliklərinə səbəb ola bilər. Çünki köhnələndə ərzağın tərkibində orqanizm üçün zərərli maddələr əmələ gəlir. Ona görə də təzə və faydalı qidalar qəbul etmək lazımdır. Ərzaq alarkən onun son istifadə tarixinə baxmaq vacibdir. Qutunun, paketin üzərində ərzaqların yararlılıq müddəti yazılır.

Qida rejiminə əməl etmək, yəni gündə ən azı üç dəfə stol arxasında əyləşib normal qidalanmaq sağlamlığın vacib şərtlərindəndir.

**Yuxu rejimi, hərəkət və gigiyena.** Bəzi uşaqlar gecədən xeyli keçənə qədər oyaq qalıb televizora baxmağa, yaxud kompüter arxasında əyləşməyə vərdiş etmişlər. Onlar bilməlidirlər ki, saatlarla hərəkətsiz oturmaq və yuxusuz qalmaq insanın sağlamlığına çox ziyan vurur. Yuxu rejiminin pozulması isə orqanizmin yuxuya olan ehtiyacının ödənməsinə mane olur.

Gigiyena qaydalarına əməl etmək vərdişi uşaq yaşlarından formalaşır. Məsələn, dişləri fırçalamaq vərdişi sayəsində dişlər sağlam olur, onların çürüməsinin qarşısı alınır. Sağlam dişlərlə qidanı yaxşı çeynəmək olur. Bu isə həzmi asanlaşdırır. Yaxud çirkli əllərlə gözünə, qulağına, ağzına toxunmaq xəstəliyə səbəb ola bilər.





Ona görə də əlləri tez-tez sabunla yumaq lazımdır. Vaxtlı-vaxtında yuyunmaq vərdişi isə bədəni təmiz saxlamağa kömək edir.

Düzgün qidalanmamaq, yuxu rejiminə və gigiyena qaydalarına əməl etməmək orqanizmin müqavimətini zəiflədir. Orqanizmin müqaviməti zəifləyəndə isə insan asanlıqla xəstələnir. Məsələn, payız və qış aylarında angina və qrip xəstəlikləri geniş yayılır. Orqanizminin müqaviməti zəif olan insan bu xəstəliklərə başqalarına nisbətən daha tez yoluxur.

Nazik geyinmək, soyuq su içmək, soyuq havalarda yuyunub bayıra çıxmaq sağlamlığına qarşı laqeydlikdir. Çünki bu cür zərərli vərdişlər zaman keçdikcə insanın orqanizmində müxtəlif xəstəliklərin yaranması ilə nəticələnir.

Xəstələnərkən özbaşına dərman qəbul etmək düzgün deyil. Yalnız həkimin yazdığı dərmanları, həm də böyüklərin nəzarəti altında qəbul etmək lazımdır. Çünki sənin hansı dərmanı qəbul etməli olduğunu heç kim həkimdən yaxşı bilməz. Böyüklər isə sənin dərmanları qaydasında qəbul etməyini nəzarətdə saxlayırlar.

**Sağlamlığı qorumağın digər şərtləri.** Sağlamlığı qorumağın başqa şərtləri də vardır. Bunlar məişətdə, küçədə ehtiyatlı davranmaqla, təbii fəlakətlər və texnogen qəzalar zamanı davranış qaydaları ilə bağlıdır.

İnsanlar məişətdə işlədilən qaz və elektrik avadanlıqlarından, kəsici alətlərdən istifadə qaydalarına mütləq əməl etməlidirlər. Yol hərəkəti və nəqliyyatda davranış qaydalarına əməl etmək də sağlamlığın qorunması üçün vacibdir. Hamı qəzalar, təbii fəlakətlər zamanı özünümühafizə qaydalarını öyrənməlidir ki, belə hallar baş verəndə özünü qoruya bilsin.



Qaz və elektrik cihazları ilə davranış qaydalarına əməl etməyi, kəsici, deşici alətlərlə ehtiyatlı davranmağı da vərdişə çevirmək lazımdır:

- ☒ Yanan qaz cihazını nəzarətsiz qoymaq olmaz.
- ☒ Cihazları şəbəkəyə qoşarkən elə et ki, əlin elektrik çəngəlinin dəmir hissəsinə toxunmasın.
- ☒ İşləyən elektrik cihazına yaş əllə toxunmaq təhlükəlidir.
- ☒ Elektrik şəbəkəsinə yad cisimlər salmaq olmaz.
- ☒ Əlində bıçaq və qayçı olarkən qaçmaq olmaz.
- ☒ Bıçağın dəstəyindən tutmaq və onu şiş ucu aşağı vəziyyətdə saxlamaq lazımdır.
- ☒ Qayçını ağzıaçıq vəziyyətdə aparmaq düzgün deyil.
- ☒ Tikiş tikərkən iynəni ağzında saxlamaq təhlükəlidir.



1. *«Sağlamlığımı qorumaq üçün nə edirəm?» adlı mətn tərtib edib dəftərində yaz.*
2. *Daha nələr sağlamlığa ziyan vura bilər? Fikirlərini yoldaşlarınla bölüş.*
3. *«Yadda saxla» işarəsi çərçivəsində verilən göstərişləri şərh et.*

# 10. QƏZALARDAN MÜHAFİZƏ VASİTƏLƏRİ



***Yanğın, yaxud qəza baş verərkən mühafizə vasitələrindən istifadə (yanğınsöndürmə balonu, əleyhqaz) bacarıqları insanların köməyinə gəlir. Bu bacarıqlara isə uşaq yaşlarından yiyələnmək lazımdır.***



*Yanğınsöndürmə balonu*

Bəzən insanların ehtiyatsızlığı, yaxud digər səbəblərdən yanğın, partlayış kimi texnogen hadisələr baş verir. İnsanlar belə gözlənilməz hadisələrə həmişə hazır olmalıdırlar.

Yanğınsöndürmə balonları yenicə başlayan yanğını tez söndürmək və onun geniş ərazilərə yayılmasına yol verməmək üçün quraşdırılır. Lakin yanğınsöndürmə balonundan istifadə qaydalarını öyrənmədən bunu etmək olmaz. Özünün və başqalarının həyatını qorumaq üçün hər bir şəxs bu qaydaları öyrənməlidir.

Yanğınsöndürmə balonundan istifadə edərkən alova çox yaxınlaşmaq olmaz. Balonu açıb odsöndürənin şırnağını yanan əşyanın üzərinə yönəltmək lazımdır.



*Əleyhqaz*

Yanğın zamanı yaranan tüstü çox təhlükəlidir. Qatı tüstü ilə nəfəs alanda insan zəhərlənir. Əleyhqaz adlanan xüsusi cihazlar insanın tənəffüs orqanlarını və gözlərini havadakı tüstü, zəhərləyici qazlardan və zərərli maddə zərrəciklərindən qoruyur. Əleyhqaz, həmçinin insanı havaya qarışmış xəstəliktörədən mikroorqanizmlərdən də mühafizə edir. Əleyhqazın içərisində süzgəclər vardır. Çirklənmiş hava əleyhqazın içərisindən keçərkən ona qarışmış zəhərli maddələr və tüstü süzgəc tərəfindən tutulub saxlanılır. Təmiz hava isə süzgəcdən keçərək insanın tənəffüs orqanlarına daxil olur.

***1. Yanğınsöndürmə balonundan nə üçün istifadə edilir? İzah et.***
***2. Əleyhqazlar nə üçün nəzərdə tutulmuşdur? Əleyhqaz olmasa, yanğın vaxtı tüstüdən necə qorunarsan? Şərh et.***



# 11. ŞƏKİL VƏ PLAN



***Böyük binalarda dəhlizlərin divarına binanın planı olan lövhə vurulur. Bəs plan nədir və o necə hazırlanır? Aşağıdakı mətndə sən plan haqqında məlumat alacaq, onun necə hazırlandığını öyrənəcəksən.***

**Plan nədir?** Təsəvvür et ki, böyük bir binadasan. Birdən radio qovşağından səs gəlir: «Xahiş olunur binanı təcili tərk edəsiniz». Sən bu zaman necə hərəkət edərsən? Əgər sənin plan barədə məlumatın yoxdursa, o zaman cavab verməyə tələsmə.

Plan hər hansı bir əşya, bina, ərazi haqqında məlumatdır. Plana əsasən binada, yaxud ərazidə nələr olduğunu və onların necə yerləşdiyini asanlıqla söyləmək mümkündür. Məsələn, əgər sənə heç zaman olmadığın bir həyətin planı verilsə, bu plana əsasən həmin həyətdəki binaların necə yerləşdiyini, oradakı uşaq meydançasını, skamyaların, hətta ağacların da yerini bilərsən. Planı ilə tanış olduqdan sonra ora getsən, özünü sanki tanış həyətdə gəzirmiş kimi hiss edəcəksən.

Nəyi isə inşa etmək istəyəndə mütəxəssislər əvvəlcə onun planını tərtib edirlər. Hər şeyin – şəhərin, küçənin, evin, otağın, hətta sadə əşyaların da planı olur. Planda insanların rahatlığı və təhlükəsizliyi üçün hər şey nəzərə alınır. Məsələn, böyük binaların planında mərtəbələrin sayı, pilləkənlərin yeri, qapılar, pəncərələr qeyd olunur. Planda qəza zamanı binanı dərhal tərk etmək üçün çıxışların yeri də göstərilir. Binanın planı ilə tanış olduqdan sonra onun içərisində sərbəst hərəkət etmək və qəza zamanı oranı dərhal tərk etmək çətin olmur.

**Otağın planı.** Bəs plan necə hazırlanır? Hər hansı yerin planını çəkmək üçün orada olan əşyaların da planını hazırlayırlar. Ayrı-ayrı əşyaların planını necə hazırlamaq olar? Çox sadə! Məsələn, sən kibrit qutusunun planını asanlıqla hazırlaya bilərsən. Bunun üçün kibrit qutusunu kağızın üzərinə qoyub ətrafını karandaşla cız. Kibrit qutusunu götür. Kağızın üzərində qalan təsvir kibrit qutusunun planıdır. Sonra həmin üsulla pozanın da planını çək.

***Şəkillə planın fərqini izah et.***



Kibrit qutusunun planını onun şəkli ilə müqayisə et. Şəkildə kibrit qutusunun yanları və üzü görünür. Planda isə biz ona sanki yuxarıdan baxırıq.

Otağın planını tərtib edərkən hər bir əşyanı öz yerində göstərmək lazımdır. Məsələn, sinif otağında, yaxud iş otağında stol-stul və skamyalar elə qoyulur ki, işıq soldan düşsün. Bu zaman əlin



*Kibrit qutusunun şəkli*



*Kibrit qutusunun planı*

**SİNİF OTAĞININ PLANI**




kölgəsi yazının üstünə düşüb görməni çətinləşdirmir. Yaxud kompüteri elə yerdən qoymaq lazımdır ki, pəncərədən düşən işıq monitordakı təsvirləri görməyə mane olmasın. Bütün bunların sağlamlıq üçün böyük əhəmiyyəti var. Bu şərtlərə əməl olunmadıqda insanlarda baş ağrıları və göz xəstəlikləri yarana bilər.

**Miqyas.** Kibrit qutusu, pozan kiçik əşyalardır və dəftər vərəqinin üzərinə yerləşir. Bəs böyük əşyaların, məsələn, şkafın planını necə çəkmək olar? Axı onları kağızın üzərinə yerləşdirmək mümkün deyil. Bunun da çox asan yolu var. Santimetr lentini götürüb şkafın uzunluğunu və enini ölç. Tutaq ki, şkafın eni 100 sm, hündürlüyü də 100 sm-dir. Kağızın üzərinə yerləşməsi üçün aldığın rəqəmləri 10-a böl. Deməli, sən 100 sm əvəzinə 10 sm uzunluğunda xətt çəkməlisən.




*Miqyasın kiçildilməsi*

Planda həqiqi ölçülərin nə qədər kiçildildiyini göstərmək lazımdır. Bunu planın bir küncündə yazırlar. Sən şkafın planını hazırlayarkən onun ölçülərini 10-a böldün. Deməli, plandakı təsvir şkafın həqiqi ölçülərindən 10 dəfə kiçikdir. Buna **miqyas** deyirlər. Şkafın planında miqyası belə göstərə bilərsən: miqyas 1:10 sm (1sm-də 10 sm)

*1. Planda əşyalar necə təsvir olunur? Şərh et.*
*2. Plan hansı məqsədlərlə çəkilir? Fikrini yoldaşlarınla bölüş.*
*3. Miqyas nədir? Miqyas nəzərə alınmadan plan çəkmək olarmı? Fikrini izah et.*
*4. Sinif otağınızın, yaxud öz otağının planını çək.*



# Yer kürəsi – evimiz




**Bizi əhatə edən təbiət**
12. Dünya okeanı
13. Materiklər və adalar
14. Hava okeanı
**Təbiət hadisələri**
15. Külək necə yaranır?
16. Yağış damlasının səyahəti
17. Yer kürəsinin hərəkəti
18. Rənglər
19. Təhlükəli təbiət hadisələri















**Canlılar aləmi**
20. Canlıların müxtəlifliyi
21. Bitkilər həyat mənbəyidir
22. Ağac əkməyə gedirik
23. Mikroorqanizmlər
24. Göbələklər
25. Həşəratlar
26. İnsan ətrafı necə dərk edir?
27. Texnogen hadisə və canlılar aləmi










## 12. DÜNYA OKEANI



***Sən yəqin ki, okean, dəniz, göl sözlərinin mənasını bilirsən. Bəs «Dünya okeanı» ifadəsi nəyi bildirir? Bunun nə olduğunu bilmirsənsə, aşağıdakı mətni oxu. Sonra sən özün də Dünya okeanı haqqında çox maraqlı məlumatlar öyrənə bilərsən.***

**Okeanlar.** Yer səthinin təxminən 3/4 hissəsini su tutur. Bu nəhəng su sahəsinə Dünya okeanı deyirlər. Dünya okeanı Sakit okean, Atlantik okeanı, Hind okeanı, Şimal Buzlu okeana bölünür.




*Okeanlar*



*Aysberq*

Sakit okean sahəsinə görə ən böyük okeandır. Atlantik okean böyüklüyünə görə ikinci yerdə, Hind okeanı isə üçüncü yerdə dayanır. Ən kiçik okean isə Şimal Buzlu okeandır. Sakit okean həm də ən dərin okeandır. Ən dayaz okean isə Şimal Buzlu okeandır.

Şimal Buzlu okean ən soyuq okeandır. Bu okeanda çox yerlərdə suyun üstü buzla örtülü olur. Bu sularda yalnız xüsusi buzqıran gəmilər üzə bilir.

Sən aysberqlər barədə eşitmisənmi? Aysberqlər nəhəng buz parçalarıdır. Bu buz parçalarının bəziləri göründüyündən dəfələrlə böyük olur. Çünki onların çox hissəsi suyun altında olur. Şimal Buzlu okeanının sularında böyük aysberqlər üzür.

***Səncə, aysberqlər gəmilər üçün təhlükəli ola bilərmi?***



**Canlılar aləmi.** Dünya okeanında çoxlu bitki və heyvanlar yaşayır. Temperatur, duzluluq və başqa amillər burada canlılar aləminin paylanmasına təsir edir. Bəzi yerlərdə canlılar aləmi çox zəngin və rəngarəng, bəzi yerlərdə isə seyrəkdir. Canlılar aləminin zənginliyinə görə də Sakit okean birinci yerdə dayanır. Şimal Buzlu okeanının canlılar aləmi digər okeanlara nisbətən yoxsuldur.

***Səncə, Sakit okeanın təbiətinin zəngin olmasının səbəbləri nədir?***







*Sakit okeanın sakinləri: dəniz tısbağası və delfin*

**Dənizlər.** Okeanlar Dünya okeanının hissələri, dənizlər isə okeanların hissələridir. Yer üzündə çoxlu dəniz var. Dənizlərin sahəsi okeana nisbətən çox kiçik olur. Dənizlər okeanlardan sualtı dağlar, adalar və ya quru sahələrlə ayrılır.

Qara dəniz, Qırmızı dəniz, Baltik dənizi, Aralıq dənizi, Karib dənizi, Mərmərə dənizi, Xəzər dənizi və başqa dənizlər öz ölçülərinə, canlılar aləminə və digər xüsusiyyətlərinə görə bir-birindən fərqlənir.

Dünyada yalnız bir dənizin – Sarqas dənizinin sahili yoxdur. Bu dəniz Atlantik okeanın ortasında yerləşir.



***1. Okeanları oxşar və fərqli xüsusiyyətlərinə görə müqayisə et.***
***2. Şimal Buzlu okeanına və Sakit okeana aid əlamətləri müəyyənləşdirib yaz.***
***3. Dənizlər okeanlardan hansı xüsusiyyətinə görə fərqlənir? İzah et.***
***4. Hər hansı bir okean, yaxud dəniz haqqında məlumat topla və təqdim et.***



## 13. MATERİKLƏR VƏ ADALAR



***Materik nədir? Bəs ada nədir? Onlar bir-birindən necə fərqlənir? Neçə materik var? Bu sualların cavabını bilmək istəyirsənmi? Bu mövzu səni materiklərlə tanış edəcəkdir.***

**Materiklər.** Dünya okeanında böyük quru parçaları – materiklər yerləşir. Materiklər hər tərəfdən okean suları ilə əhatə olunmuşdur. Altı materik var: Avrasiya, Afrika, Şimali Amerika, Cənubi Amerika, Avstraliya və Antarktida.




*Materiklər*



***Xəritə və yaxud qlobus üzərində müəyyən et: Yer kürəsində quru sahələr harada çoxdur – şimalda, yoxsa cənubda?***

Avrasiya ən böyük materikdir. Böyüklüyünə görə ikinci yerdə Afrika, üçüncü yerdə isə Şimali Amerika materiki dayanır. Cənubi Amerika dördüncü, Antarktida materiki isə beşinci yerdədir. Ən kiçik materik Avstraliyadır.



*Böyük Səhra*

**Materiklərin təbiəti.** Avrasiya materiki 4 okeanla əhatə olunmuşdur. Bu materikin ərazisi çox geniş, təbiəti isə olduqca müxtəlifdir. Burada qalın meşələr, qumlu səhralar var. Yer kürəsinin ən uca dağ zirvələri də Avrasiyadadır.

Ən isti ərazilər Afrika materikindədir. Dünyanın ən böyük səhrası – Böyük Səhra da Afrikadadır. Ən yağışlı ərazilər isə Cənubi Amerikadadır. Burada çox qalın meşələr var. Bu materikdə lama adlı




*Materik və okeanların canlılar aləmi*

otyeyən heyvan yaşayır. Lamaya Cənubi Amerika dəvəsi də deyirlər. Avstraliya isə kenquru, koala kimi maraqlı heyvanların vətənidir. Avstraliyada elə heyvanlar yaşayır ki, onlara digər materiklərdə rast gəlmək olmur.

Ən soyuq materik Antarktidadır. Burada torpaq görünmür. Çünki onun üzəri qalın buz qatı ilə örtülmüşdür. Antarktida pinqvinlərin vətənidir. Antarktidanın canlılar aləmi çox yoxsuldur.

**Adalar.** Dünya okeanında hər tərəfdən su ilə əhatə olunmuş kiçik quru parçaları olan adalar da yerləşir. Adaların sahəsi materiklərlə müqayisədə çox kiçikdir. Xəzər dənizində də çoxlu ada var. Bunlardan Pirallahı və Çilov ən böyük adalardır.

***Materiklə adanın oxşar və fərqli cəhəti nədir?***





1. ***Xəritədə materiklərdəki dağlıq ərazilər sarı-qəhvəyi, düzənlik ərazilər yaşıl, buzlaqlar ağ rəngdə göstərilir. Xəritəyə əsasən materiklərin təbiəti haqqında mətn tərtib et.***
2. ***Bir materikin təbiəti və canlılar aləmi haqqında təqdimat hazırla.***
3. ***Adaları xəritədə, yaxud qlobusda tapıb adlarını dəftərində yaz.***

## 14. HAVA OKEANI



***Yer səthindən buxarlanan su nə üçün tamamilə uçub getmir və yenidən yer səthinə qayıdır? Maraqlı sualdır, elə deyilmi? Mətni oxusan, bunun nə üçün belə olduğunu biləcəksən.***

**Atmosfer.** Təyyarəyə «hava gəmisi» də deyirlər. Çünki biz, sanki, hava okeanının dibində yaşayırıq. Bu hava okeanını ***atmosfer**** adlandırırlar. Atmosfer Yer kürəsini şəffaf yorğan kimi bürüyüb. Onun tərkibi müxtəlif qazlardan, su buxarından və toz zərrəciklərindən ibarətdir.




*Yer kürəsi və onun atmosferi*

**Atmosferin xüsusiyyətləri.** İnsan suyun altında bir neçə dəqiqədən artıq qalsa, məhv olar. Okeanda, dənizdə suyun dərin qatlarına endikcə daha qaranlıq və soyuq olur. Bir neçə yüz metr dərinlikdə isə zülmət qaranlıqdır. Suyun altında yalnız ***dalğıclar**** nisbətən uzun müddət qala bilirlər.

Hava okeanında çox şey su okeanının əksinədir. İnsan özünü hava okeanının dibində daha yaxşı hiss edir. Yuxarı qalxdıqca get-gedə çətin nəfəs alır. Ona görə də yüksək dağ zirvəsinə qalxmaq adi insanlar üçün çox çətindir. Zirvəyə yalnız ***alpinistlər**** qalxa bilirlər.

***Atmosferin xüsusiyyətləri haqqında hansı məlumatın var? Onları sadala.***

---

* **Atmosfer** – yunan sözü olub, «buxar» və «kürə» sözlərinin birləşməsindən yaranmışdır.
* **Dalğıc** – suyun dərin qatlarına enmək üçün xüsusi hazırlığı olan insanlar
***Alpinist** – dağ zirvələrinə qalxmaq üçün xüsusi hazırlıq keçən idmançılar

**Atmosferin əhəmiyyəti.** Atmosferin Yer üçün böyük əhəmiyyəti var. Atmosferdəki oksigen qazı canlı orqanizmlərin nəfəs alması üçün vacibdir.

Atmosfer gündüzlər Yer səthinin həddən artıq qızmasına imkan vermir. Gecələr isə onu çox soyumağa qoymur.

Atmosferdə daim müxtəlif hadisələr baş verir. Yer səthindən buxarlanan su atmosferdə toplanır. Sonra buluda və yağıntıya çevrilir. Küləklərin yaranması da atmosfer hadisələrindən biridir.



*Atmosferin çirklənməsi*

**Atmosferin çirklənməsi.** İnsanların fəaliyyəti atmosferə təsir göstərir. Böyük fabrik və zavodlarda istehsal prosesində havaya zərərli qazlar, toz və digər maddələr atılır. Sayı gündən-günə artan təyyarələr və digər nəqliyyat növlərinin hərəkəti zamanı da zərərli qazlar ayrılaraq atmosferə yayılır. Bütün bunlar atmosferin çirklənməsinə və havada olan oksigen qazının miqdarının azalmasına səbəb olur.

***Atmosferin çirklənməsinin canlılar aləminə mənfi təsirini əsaslandır.***





Sən isti hava doldurulmuş şarların necə uçduğunu görmüsənmi? Bu ona görə belə olur ki, hava qızdıqca yüngülləşir və yuxarı qalxır. Keçmişdə insanlar isti havanın bu xüsusiyyətindən istifadə edib nəhəng hava şarları düzəldirdilər. Bu şarlar onlar üçün indiki təyyarələri əvəz edirdi.



*Hava şarı*

***1. Yer planeti üçün atmosferin əhəmiyyətini izah et.***
***2. Canlıların həyatında atmosferin rolunu şərh et.***
***3. Okean və atmosfer arasında hansı əlaqələr vardır? Bu əlaqələri şərh et.***



# 15. KÜLƏK NECƏ YARANIR?



***Buludlar nə üçün bir yerdə dayanmır? Onları hərəkət etdirən nədir? Bu, atmosferdə baş verən proseslərlə bağlıdır. Aşağıdakı mətndə həmin proseslər haqqında yazılıb.***

**Hava necə hərəkət edir?** Hava daim hərəkət edir və buludları bir yerdən başqa yerə qovur. Bəs hava nə üçün hərəkət edir?

Diqqət etmisənmi, qışda evin qapısını açan kimi soyuq hava kütləsi sürətlə içəri dolur. Soyuq hava içəri dolarkən isti hava yuxarı qalxır və bayıra çıxır. Çünki isti hava yüngüldür. Beləliklə, soyuq və isti hava yerini dəyişir. Külək belə yaranır.




*Gündüz vaxtı*




*Gecə vaxtı*

Yerin atmosferində də buna oxşar hadisə baş verir. Yerin hər tərəfini Günəş eyni dərəcədə qızdırmır. Ona görə də hava bəzi yerlərdə soyuq, bəzi yerlərdə isti olur. Soyuq hava isti yerlərə doğru hərəkət edir və isti havanı sıxışdırır. İsti hava kütlələri də hərəkət edərək yerini dəyişərək külək yaradır. Deməli, külək atmosferdə baş verən təbiət hadisələrindən biridir.

Respublikamızın paytaxtını «küləklər şəhəri» adlandırırlar. Bakı şəhəri Xəzər dənizinin sahilində yerləşir. Yayda Günəşin şüaları torpağa da, suya da eyni miqdarda istilik verir. Amma torpaq suya nisbətən daha tez qızır. Torpaq sudan tez qızdığı üçün torpağın üzərindəki hava da suyun üzərindəki havadan isti olur. Belə olan halda soyuq hava axını isti hava olan istiqamətdə hərəkət edir. Yəni külək dənizdən quruya əsərək sərinlik gətirir. Ona görə də yayda insanlar dənizin sahilinə can atırlar.

***Sahil küləklərinin necə yarandığını izah et.***

Küləyin gücü onun sürətindən asılıdır. Yəni hava kütləsi nə qədər sürətlə hərəkət edirsə, külək o qədər güclü olur.

**Küləyin əhəmiyyəti.** Təbiətdə küləyin böyük əhəmiyyəti vardır. Külək olmasa, yağış buludları yarandığı yerdə qalar. Külək buludları qovaraq bir yerdən başqa yerə aparır.



*Küləyin enerjisini elektrik enerjisinə çevirən qurğular*

Külək bitkilərin həyatında da mühüm rol oynayır. O, çiçək tozcuqlarını bir çiçəkdən başqa çiçəyə aparır. Bunun nəticəsində bitkilər bar verir. Çiçəklərin yerində meyvələr yaranır.

Külək çox olan ərazilərdə insanlar xüsusi qurğular vasitəsi ilə küləyin gücündən elektrik enerjisi alırlar. Enerjinin bu yolla alınması zamanı havaya zərərli maddələr atılmır və ətraf mühit çirklənmir. Azərbaycan ərazisində il boyu güclü küləklər əsən ərazilər var. Həmin yerlərdə külək enerjisi qurğuları quraşdırılmışdır.

Çox güclü küləklər isə təsərrüfata ziyan vurur. Qasırğa, tufan kimi təbiət hadisələri güclü küləklə müşayiət olunur. İnsanlar hava proqnozunun köməyi ilə havanın necə olacağını bilir və əvvəlcədən ehtiyat tədbirləri görürlər.



1. ***Şaxtalı havada qapını açanda hansı hadisə baş verir? Bu hadisəni şərh et.***
2. ***Küləyin bitkilərin həyatı ilə necə əlaqəsi vardır? Bu əlaqənin əhəmiyyəti haqqında danış.***
3. ***Küləkdən enerji alınmasının faydasını izah et.***

# 16. YAĞIŞ DAMLASININ SƏYAHƏTİ



***Su təbiətdə necə dövr edir? O bir haldan başqa hala necə keçir? Bilmək istəyirsənmi? Yağış damlasının başına gələnləri oxusan, bu suallara da cavab tapacaqsan.***

Yağış damlası yerə doğru yol gəlirdi. Hava sakit, küləksiz idi. Onun kimi çoxlu sayda yağış damlası bir-bir yanından ötüb yerə yağırdı. Nəhayət, o, yamyaşıl otun üstünə düşdü. Otun saplağı ilə sürüşüb köklərinə çatdı. Torpağın içərilərinə doğru yeridi. Torpaq yağış damlasını sevinclə qarşıladı. Onlar çoxdan tanış idilər. Yağış damlası torpağa ilk dəfə qonaq gəlmirdi.

Dupduru yağış damlası torpağa düşən kimi rəngi bulandı. Yağış damlası bundan heç də narahat olmurdu. Çünki sonra nə olacağını artıq bilirdi. Bulana-bulana yerin dərinliklərinə doğru gedirdi və birdən şırıltı eşitdi. Yaxınlıqda yeraltı sular vardı. Yağış damlası sevindi. Bu sular onun özü kimi damlaların bir yerə toplaşmasından yaranmışdı. O da sayı bilinməyən damlalara qarışıb axdı. Hara getdiyini düşünmürdü. Çünki bu yolu da çox getmişdi. O qədər çox ki, sayını xatırlamırdı. Dostları ilə söhbətləşə-söhbətləşə uzun məsafə qət etdilər. Birdən gözü işıqdan qamaşdı. Axa-axa yerin üstünə gəlib çıxmışdılar. Qarşıda ucsuz-bucaqsız dəniz vardı. Yağış damlası dənizin sularına qarışdı. Bir qədər dayanıb dənizin dibindəki yosunlara, yanından oyan-buyana şütüyən balıqlara, dənizə çimməyə gələn insanlara baxdı. Başı elə qarışdı ki, nə qədər vaxt keçdiyini bilmədi. Bir də onu gördü ki, Günəşin hərarətindən zərrəciklərə çevrilib səmaya qalxır. Yenə təəccüblənmədi. Bu yol da ona tanış idi. Yuxarı qalxdıqca hava soyuyurdu. Yağış damlasının zərrəcikləri üşüyüb yenidən bir yerə yığılmağa başladı. Ətrafında saysız-hesabsız zərrəciklər də üşüməmək üçün bir-birinə sığındılar və bulud əmələ

***Yağış damlasının təsvir etdiyi bu hadisə hansı fəsildə baş verir?***











gəldi. Külək buludu dənizin üzərindən qovub qurunun üzərinə gətirdi. Hava soyuduqca zərrəciklər bir-birinə daha yaxınlaşır, bulud sıxlaşırdı. Axırda bulud dözə bilmədi, suya dönüb axdı. Yağmur başladı.

***Küləyin buludları hərəkət etdirməsinin əhəmiyyəti barədə danış.***

Yağış damlası yenə yerə doğru yol gəlirdi. Bu dəfə hava yaman küləkli idi. Külək elə vıyıldayırdı ki... Yağış damlası küləyə sinə gərib yerə doğru gəlirdi. Sonra yenə torpağa qarışıb axacaq. Bu dəfə yolu dənizə yox, bəlkə də, gözəl, sərin bir bulağa düşəcəkdi. Yağış damlasının yolunun bulaqdan düşdüyü vaxtlar da olmuşdu. Havanın çox soyuq olduğu vaxtlarda o donub doluya, qara da çevrilmişdi. Özü də bir dəfə yox! Dəfələrlə!

**Göydə doğular,**
**Yerdə boğular.**
**(Yağış)**

Yağış damlası fəsillərin xasiyyətini yaxşı bilirdi. İndi payız fəsli idi. Ona görə də hava belə küləkli idi. O isə küləyin qanadlarında quş kimi uçurdu.

***1. Necə oldu ki, bulud əmələ gəldi və yağışa çevrildi? Şərh et.***
***2. Su zərrəcikləri nə zaman qara çevrilir? Fikrini nümunə göstərməklə izah et.***
***3. Təbiətdə suyun dövranı nə ilə bağlıdır? Fikirlərini izah et.***



## 17. YER KÜRƏSİNİN HƏRƏKƏTİ



***Gecə və gündüz daim bir-birini əvəz edir. Yaxud il ərzində yaz, yay, payız və qış fəsilləri növbə ilə təbiəti dəyişir. Bu ardıcıllıq heç vaxt pozulmur. Bunlar necə baş verir? Aşağıdakı mövzu hamımıza yaxşı tanış olan bu təbiət hadisələrinin yaranmasından bəhs edir.***

**Gecə və gündüzün yaranması.** Hər gün səhər açılıb ətraf işıqlanır, sonra günorta olur. Axşama doğru hava getdikcə qaralır və gecə düşür.

Bəs gecə və gündüz necə yaranır?

Gecə və gündüzün bir-birini əvəz etməsi Yer kürəsinin öz oxu ətrafında fırlanması ilə bağlıdır. Yerin öz oxu ətrafında hərəkətini təsəvvür etmək üçün qlobusu fırlat. Yer öz oxu ətrafında bu cür fırlanır. Yer fırlandıqca Günəşə sarı çevrilən tərəfində gündüz, digər tərəfində isə gecə olur. Sadə əl fanarı və qlobusun köməyi ilə bu təbiət hadisəsinin necə baş verdiyini təsəvvür etmək mümkündür.




Yerin öz oxu ətrafında tam bir dövrə vurması 24 saat çəkir. Bu 24 saat ərzində Yerdə 1 gecə və 1 gündüz olur. Buna ***sutka*** deyilir.

Yer öz oxu ətrafında qərbdən şərqə doğru fırlanır. Bu, saat əqrəbinin əksi istiqamətidir. Ona görə də səhər Günəş ilk dəfə şərqdə görünür. Şərq ölkələrində yeni gün qərbdəkilərə nisbətən daha tez başlayır. Buna uyğun olaraq şərqdə axşam da qərb ölkələrindən tez düşür. Ölkələr arasındakı saat fərqi də belə yaranır.



***Bakı ilə dünya ölkələrinin bir neçə şəhəri arasında saat fərqini müəyyən et.***

**Fəsillərin yaranması.** Baharın gəlişi ilə qarlar əriyir. Ətraf yaşıllaşır, gül-çiçəklə bəzənir. Sonra yay gəlir. Payız olur, bağlarda meyvələr yetişir. Payız qışa dönür. Qar yağır. Beləcə fəsillər bir-birini əvəz edir. Bəs fəsillərin dəyişməsinin səbəbi nədir? Bu səbəb Yerin Günəşin ətrafındakı hərəkəti ilə bağlıdır.



**Babamın bir çuxası var, on iki cibi, cibinin hər birində otuz düymə, hər düymənin bir üzü ağ, bir üzü qara.**

**(aylar və sutka)**

Biz artıq Yerin kürə şəklində olduğunu, onun Günəşin ətrafında fırlandığını bilirik. Yer planetinin Günəş ətrafındakı yoluna onun ***orbiti*** deyilir. Yerin Günəş ətrafında tam dövr etməsi 12 aya, yəni 1 ilə başa çatır. Yer Günəşin ətrafında hərəkət etdikcə dörd fəsil bir-birini əvəz edir. İlin 12 ayından mart, aprel, may – yaz, iyun, iyul, avqust – yay,

sentyabr, oktyabr, noyabr – payız, dekabr, yanvar, fevral isə qış aylarıdır. Təqvim üzrə mart yazın ilk ayıdır. Lakin mart girən kimi çiçəklər açılıb ağaclar yaşıl donunu geyinmir. Təbiət yavaş-yavaş canlanır. Xalqımız bu hadisəni dörd həftə ərzində qeyd edir. Əvvəl su, sonra od, ardınca külək, sonuncu çərşənbədə torpaq oyanır. Bu çərşənbə el arasında torpaq çərşənbəsi, yaxud ilaxır çərşənbə adlanır. Martın 21-i isə yazın ilk günüdür. Həmin gün gecə ilə gündüz bərabərləşir və gündüzlər uzanmaqda, gecələr isə qısalmaqda davam edir. Yazda günlər keçdikcə havanın temperaturu yüksəlir. Çünki qarşıdan yay fəsli gəlir. Yayda gündüzün uzunluğu və havanın istiliyi ən yüksək həddə çatır və sonra tədricən azalmağa başlayır. İrəlidə Yeri payız fəsli gözləyir.




*Yerin öz orbiti üzrə hərəkəti və fəsillər*

***Yazın gəlişi ilə təbiətdə hansı dəyişiklikləri müşahidə edirik?***

***Yaz və payız bərabərliklərinin fərqini izah et.***

Payız fəsli girəndə gecə ilə gündüz yenə də bərabərləşir. Amma yazdan fərqli olaraq payızda gecələr hər gün bir az da uzanır, havalar bir az da soyuyur. Yavaş-yavaş qış gəlir. Dekabr qışın birinci ayıdır. Dekabrın 22-si isə qışın ilk günüdür. Qış ən soyuq fəsildir. Qışda təbiət, sanki, yuxuya gedir. Bitkilər suyu və suda həll olmuş qida maddələrini torpaqdan çətinliklə alır. Ağaclar yarpaqlarını töküb yatır. Heyvanların da yem tapması çətinləşir. Onların bir çoxu qış yuxusuna gedir. Yaz gələndə havaların isinməsi ilə təbiət yuxudan oyanır. Fəsillər beləcə dövr edir.



***1. Gecə və gündüz necə yaranır? Şərh et.***
***2. Səhər açılanda nə üçün Günəş həmişə şərqdə görünür? İzah et.***
***3. «Sutka» anlayışı nəyi ifadə edir? Şərh et.***
***4. Yerin Günəş ətrafındakı bir dəfə tam dövrə vurması neçə aya başa çatır? Bu müddət neçə ildir?***
***5. Fəsillərin dəyişməsi nə ilə bağlıdır? Fəsillərin dəyişməsi ilə təbiətdə baş verən hadisələri ardıcıllıqla şərh et.***
***6. Fəsillərin dəyişməsi ilə bağlı gündüzün uzunluğunun necə dəyişdiyini təqvimin köməyi ilə müəyyən et, sonra müqayisələr apar.***

# 18. RƏNGLƏR



*Təbiətin rəngləri necə yaranır? Heç bu barədə düşünmüsənmi? Aşağıdakı mətn sənə işığın çox maraqlı bir sirrini açacaq.*



*Göyqurşağı*

**Ağ işıq və onun yeddi rəngi.** Yağışdan sonra Günəş çıxanda yarpağın üzərinə düşmüş yağış damcısı əlvan rənglərə çalır. Gözlərimizi qıyıb Günəşə baxanda və günəşli havada fəvvarəni seyr edəndə də eyni rəngləri görə bilərik. Göyqurşağı adlanan təbiət hadisəsi haqqında yəqin ki, eşitmisən. Günəşin şüaları yağış damcılarında əks olunanda göyqurşağı yaranır. Göyqurşağında yeddi rəng bir-birinin ardınca düzülür: qırmızı, narıncı, sarı, yaşıl, mavi, göy, bənövşəyi. Bu niyə belə olur?

Qaranlıq otaqda qapının, pəncərə pərdəsinin üzərindəki kiçik deşikdən düşən işığın rəngi ağdır. Amma bir təcrübə ilə sən onun yeddi rəngdə olduğunu müəyyən edə bilərsən. Pəncərənin şüşələrini kartonla bağla. Bir qədər yuxarıda kartonda nazik yarıq aç. Bir ləyənə su doldurub pəncərənin qarşısına qoy. Suya güzgü parçası salıb ləyənin divarına söykə. Yarıqdan süzülən günəş işığı suya, ordan da güzgüyə düşüb əks olunacaq və yeddi rəngə ayrılacaq. Demək, ağ işıq su damcısından, çilçırağın şüşələrindən keçəndə göyqurşağındakı kimi yeddi rəngli zolaq yaradır. Bu rəngli zolağa işığın spektri* deyilir.



***İşığın spektrindəki rəngləri ardıcıllıqla sadala.***

---

* **Spektr** – işıq şüaları prizmadan və ya digər şüasındıran mühitdən keçən zaman əmələ gələn rəngli zolaq

**Təbiətin rəngləri.** Yazda və yayda təbiət al-əlvan olur. Payızın da öz rəngləri var. Qışda ağappaq qar yağır. Ətrafımızda rənglərin bu cür dəyişməsinin səbəbi işıqla bağlı təbiət hadisəsidir. Fikir vermisənmi, gecə vaxtı gülün-çiçəyin, otun rəngi görünmür. Səhər hava işıqlandıqca rənglər görünməyə başlayır. Günəş çıxanda isə rənglər daha da canlanır. Təbiətin bu rəngləri adi ağ işıqdan yaranır. İşıq olmasa, bu rənglər də olmaz.



*Təbiətin rəngləri*

Soruşa bilərsən ki, axı təbiət yalnız yeddi rəngdən ibarət deyil, burada min bir rəng var?! Doğrudur, təbiətdə biz əlvan rənglər görürük. Nə qədər müxtəlif olsa da, bütün bu rənglər bir, iki, yaxud üç rəngin qarışması ilə yaranır.

**Bizim təcrübəmiz.** Bir dəfə uşaqlarla rəsm çəkmək istəyirdik. Cəmi üç rəngimiz var idi: qırmızı, sarı və mavi. Bu rənglərlə nə çəkə bilərdik? Səmanı, səhranı, bir də qırmızı çiçəkləri. Amma biz çox şey çəkmək istəyirdik: qırmızı çiçəyə yaşıl yarpaq, səhrada dəvələr... Üç rənglə bunu necə edə bilərdik?! Müəllimimiz köməyimizə gəldi. Bizə təklif etdi ki, başqa rəngləri almaq üçün əlimizdə olan rəngləri bir-birinə qarışdıraq. Sarı rənglə mavi rəngi qarışdırdıq: yaşıl rəng alındı! Qırmızı çiçəyin yarpağını rənglədik. Sonra qırmızı rənglə yaşıl rəngi qarışdırıb qəhvəyi, sarı rənglə qırmızı rəngi qarışdırıb narıncı rəngləri aldıq. Anladıq ki, bu qayda ilə istədiyimiz rəngi alıb, əlvan rəsmlər çəkə bilərik.



1. ***Bizim gördüyümüz ağ işıq hansı rənglərin qarışığıdır? Bu rənglərin adlarını söylə.***
2. ***Ətrafımızdakı varlıqların rəngli görünməsinin səbəbi nədir? Şərh et.***
3. ***Rəngləri qarışdırmaqla müxtəlif rənglər əldə et. Təcrübənin nəticələrini dəftərinə yaz.***

# 19. TƏHLÜKƏLİ TƏBİƏT HADİSƏLƏRİ



***Külək, yağış, gecə-gündüzün və fəsillərin bir-birini əvəz etməsi, rənglərin dəyişməsi adi təbiət hadisələridir. Lakin bəzən ətrafda çox böyük dağıntılar yaradan təhlükəli təbiət hadisələri də baş verir. Bəs belə fövqəladə hallar, əsasən, hansı təbiət hadisələri ilə bağlı olur?***

Fövqəladə hal xüsusi vəziyyətin yaranmasıdır. Bu zaman əhalinin sağlamlığına, təsərrüfatlara və təbii mühitə ciddi ziyan dəyir. İnsanların normal həyat fəaliyyəti pozulur.

**Yerin dərin qatlarında** müxtəlif proseslər gedir. Bu proseslər nəticəsində bəzən zəlzələ, vulkan püskürməsi kimi təbiət hadisələri baş verir.



*Zəlzələ*



*Vulkan*

**Yerin üst qatlarındakı** proseslər isə sürüşmə, sel, uçqun, qar uçqunu, toz fırtınası və digər hadisələr törədə bilir.



*Sürüşmə*



*Toz fırtınası*

**Yerin atmosferində** gedən proseslər bəzən tufan, burulğan, qasırğa kimi dağıdıcı hadisələr yaradır. Bu hadisələr güclü küləklə müşayiət olunur.

**Yerin su təbəqəsində** də fövqəladə hallar baş verir. Fırtına, güclü dalğalanma dənizdə baş verən təhlükəli təbiət hadisələridir. Bu hadisələr də şiddətli küləkdən



Burulğan



Sunami

yaranır. Sunami adlanan təbiət hadisəsi isə okeanda zəlzələ nəticəsində yaranan nəhəng su dalğasıdır.

Su ilə bağlı fövqəladə hallar yalnız dəniz və okeanlarda baş vermir. Çaylarda suyun həddən artıq çoxalması, sel, daşqın kimi hadisələr zamanı su yaşayış yerlərini və əkin sahələrini basır. Belə hallarda təbiətə və insanlara xeyli ziyan dəyir.



Meşə yanğını

Təbii yanğınlar da fövqəladə hal yarada bilir. Meşə yanğınları, taxıl zəmilərinin alışıb-yanması belə hadisələrdəndir.

Yerə meteoritlərin düşməsi kosmosla bağlı təbiət hadisəsidir. Meteoritlər səmadan uçub gələn qızmar daşlardır. Bəzən bu daşlar çox nəhəng olur və düşdüyü yerdə böyük dağıntılar yaradır.



Meteorit düşməsi

Böyük dağıdıcı təsirə malik olan təbii xarakterli fövqəladə hadisələrə təbii fəlakət deyirlər. Təbii fəlakətlər insanların iradəsindən asılı olmayaraq, təbiətdə baş verən müxtəlif proseslərin nəticəsində yaranır. Ona görə də təbii fəlakətlərin qarşısını almaq mümkün deyil.



1. ***Təbii dağıdıcı hadisələr təbiətə və insanlara necə ziyan vura bilər? Fikirlərini yaz.***
2. ***Zəlzələ ilə torpaq sürüşməsini, sunami ilə daşqını Venn diaqramında müqayisə et.***

## CANLILAR ALƏMİ

### 20. CANLILARIN MÜXTƏLİFLİYİ



***Yer üzündə çoxlu sayda canlı növü var. Onlar həddindən artıq müxtəlifdirlər. Səncə, bu qədər canlı növünü necə qruplaşdırmaq olar? Alimlər bunu ediblər. Onların bunu necə etdikləri bu mətndə yazılıb.***



*Bakteriyalar*

**Canlılar aləminin təsnifatı*.** Əsas xüsusiyyətlərinə görə canlılar dörd aləmə bölünür: bakteriyalar, göbələklər, bitkilər və heyvanlar. Bu bölgüyə ***canlılar aləminin təsnifatı*** deyilir.

***BAKTERİYALAR*** dünyada ən çox yayılmış canlılardır. Bakteriyalar suda, torpaqda, havada, insan və heyvan orqanizmlərində yaşayır. Bu canlılar o qədər kiçikdirlər ki, onları adi gözlə görmək mümkün deyil. Onları yalnız böyüdücü cihazlar vasitəsilə görmək olur.



*Göbələklər*

***GÖBƏLƏKLƏR*** hər cür şəraitdə yaşamağa uyğunlaşmış canlılardır. Meşələrdə və digər rütubətli yerlərdə gördüyümüz göbələklərdən başqa təbiətdə mikroskopik göbələklər də yaşayır. Bu göbələkləri yalnız mikroskop altında müşahidə etmək olur.

***BİTKİLƏR.*** Həyatımızda bitkilərin əhəmiyyəti böyükdür. Yaşıl bitkilər havanın təmizlənməsində mühüm rol oynayır. Bitkilər torpağın qida maddələri ilə zənginləşməsinə də kömək edir.




*Bitkilər*

***Şəkildəki bitkilər bir-birindən nə ilə fərqlənir?***



---

* **Təsnifat** – hər hansı əlamətlərə, xüsusiyyətlərə görə qruplara ayırma

İnkişaf səviyyəsinə görə bitkilər aləmi ibtidai və ali bitkilərə bölünür. Ali bitkilərin kökü, gövdəsi və yarpağı olur. İbtidai bitkilərdə isə bu orqanların hamısı yoxdur.

***HEYVANLAR.*** Heyvanlar daha mürəkkəb quruluşa malik canlılardır. Heyvanların qidasını digər canlılar təşkil edir. Alimlər bədənində daxili skeletin olub-olmamasına görə heyvanları iki qrupa ayırmışlar. Bədənində skeleti olan heyvanlara onurğalı, skeleti olmayanlara isə onurğasız heyvanlar deyilir. Onurğa skeletin əsas hissəsidir. Skelet ürəyi, ciyərləri və digər daxili orqanları mühafizə edir.

Heyvanlar aləminin çox böyük hissəsini onurğasızlar təşkil edir. Onurğasız heyvanlar nisbətən sadə quruluşa malikdirlər. Qurdlar, həşəratlar, xərçənglər və ilbizlər onurğasız heyvanlardır. Onurğalılar yüksək inkişaf etmiş canlılardır. Balıqlar, suda-quruda yaşayanlar, sürünənlər, quşlar və məməlilər (yeni doğulan balalarını ana südü ilə qidalandıranlar) onurğalılara aid edilir.





***Şəkildəki hansı heyvanları tanıyırsan? Onları nə birləşdirir?***

*Onurğasız heyvanlar*





***Şəkildəki heyvanların adlarını söylə.***

*Onurğalı heyvanlar*

## ONURĞALI HEYVANLAR




*Balığın qəlsəmələri*



*Qurbağa kürüsü*



*Timsah balası*

***Balıqlar*** suda yaşayır və üzgəclərinin köməyi ilə hərəkət edirlər. Bədənləri baş, gövdə, quyruqdan ibarət olub, pulcuqlarla örtülü və sürüşkəndir. Balıqlar kürü vasitəsi ilə çoxalır. Balıqlar qəlsəmələri ilə tənəffüs edirlər. Onlar sudan çıxan kimi məhv olurlar, çünki ağciyərləri yoxdur.

Elə heyvanlar da var ki, həm suda, həm də quruda yaşayırlar. ***Suda-quruda yaşayanlara*** qurbağanı misal göstərmək olar. Belə heyvanlara amfibilər də deyirlər. Suda-quruda yaşayanlar ağciyər və dəri ilə tənəffüs edirlər. Bu heyvanlar da balıqlar kimi kürü tökməklə çoxalırlar.

***Sürünənlərin*** çoxu quruda: torpaqda və ya ağaclarda yaşayır. Amma suda yaşayan növləri də vardır. İlan, kərtənkələ, tısbağa, timsah sürünən heyvanlardır. Timsahlar, bir çox tısbağa və ilan növləri suda yaşayır. Bəzi ilanlar zəhərlidir. Suda yaşayan növləri də daxil olmaqla bütün sürünənlər ağciyərlərlə tənəffüs edir, əsasən, yumurta qoymaqla çoxalırlar.

Təbiətdə ***quşlar*** da geniş yayılmışdır. Quşların bədəni tüklər və lələklərlə örtülü olur. Quşlar ağciyərləri ilə tənəffüs edir və yumurta qoymaqla çoxalır. Dəvəquşu, pinqvin də quşdur, amma onlar uça bilmirlər. Ev quşları: toyuq, ördək, qaz da insan tərəfindən əhliləşdirilmiş və uzaq məsafələrə uçmaq qabiliyyətini itirmişlər.



***Quşlar və sürünənlər arasında oxşar cəhət nədir?***

***Məməlilər*** ən inkişaf etmiş onurğalı heyvanlardır. Məməlilər doğularaq çoxalır və yeni doğulmuş balalarını ana südü ilə bəsləyirlər. Suda yaşayan canlılar arasında da məməli heyvanlar var. Məsələn, balina və delfin məməli heyvanlardır. Suda yaşayanlar da daxil olmaqla bütün məməlilər ağciyərləri ilə tənəffüs edirlər.

***1. Yer üzündəki canlılar neçə aləmə bölünür? Onların adlarını söylə.***
***2. Heyvanlar aləmi bir əsas əlamətinə görə iki qrupa ayrılır. Bu hansı əlamətdir?***
***3. İnsanı məməlilərə aid etmək olarmı? Nə üçün?***
***4. Öyrəndiklərinə əsaslanaraq tanıdığın heyvanları qruplaşdır.***

| Balıq | Sürünən | Quş | Məməli |
|---|---|---|---|
| | | | |



# 21. BİTKİLƏR HƏYAT MƏNBƏYİDİR



***Son zamanlar ölkəmizdə çoxlu parklar və bağlar salınıb. İnsanlar nə üçün yaşıllığın çoxalmasına çalışırlar? Bunun səbəbini bilmək üçün sən gərək aşağıdakı mətni oxuyasan.***

**Meşə sahələri niyə azalır?** Uzaq keçmişdə planetimizdə yaşıllıq indikindən dəfələrlə sıx olmuş, meşələr daha geniş əraziləri əhatə etmişdir. Qədim dövrlərdə insanlar soyuqdan ölməmək üçün ağacları qırıb yandırırdılar. Sonralar onlar ev tikmək, mebel düzəltmək, kağız istehsal etmək və başqa məqsədlər üçün meşələri qırmışlar. Uzun illər boyu Yer üzündəki meşələrin yarıdan çoxu məhv edilmiş, yaşıllıq azalmışdır.



*Meşənin qırılması*

***İnsanlar meşələri, səncə, daha hansı məqsədlər üçün qırmışlar?***

**Yaşıl bitkilər və oksigen qazı.** İnsanlar bitkiləri saydığımız faydalarına görə qırmış və onun daha vacib xüsusiyyətini unutmuşlar. Yaşıllığın azalması isə Yer planetində həyatın davam etməsi üçün təhlükə yaratmışdır. Çünki yaşıllıq azaldıqca havanın tərkibində oksigen qazı da azalır. Oksigen olmasa, canlılar nəfəs ala bilməz. Oksigen qazını isə yalnız yaşıl bitkilər yaradır.

Günəş şüasının təsiri ilə yaşıl bitkilərdə mürəkkəb proseslər gedir. Bu proseslər zamanı bitkilər bizim üçün zərərli olan karbon qazını alıb əvəzində oksigen qazı hazırlayır.

İndi hamı bilir ki, Yer üzündə həyatın davam etməsi üçün yaşıllığın çoxalması vacibdir. Ona görə də insanlar yaşıllığı yenidən bərpa etməyə çalışırlar. Onlar bunun üçün yeni meşə zolaqları, bağlar, parklar salırlar.




*Yaşıl yarpaqlarda oksigen alınması*



Hərə bir ağac əkərsə, yaşıllıq artar. Yaşıllıq çoxalarsa, nəfəs aldığımız hava oksigenlə zənginləşər. Həm də heç zaman unutmaq olmaz ki, bir ağacı kəsmək bir canlını həyatdan məhrum etməkdir. Axı ağac canlıdır.

**Bitkilər qida və dərman vasitəsidir.** Bitkilər həm də bir çox canlılar üçün əvəzsiz qida mənbəyidir. Heyvanların xeyli hissəsi yalnız bitkilərlə qidalanır.

Sən, yəqin ki, meyvə yeməyi xoşlayırsan. Sağlamlığını qorumaq üçün insanların da gündəlik qidasında mütləq meyvə-tərəvəz, göyərti olmalıdır. Onların təzə çəkilmiş şirəsi xüsusilə faydalıdır. Bitkilərin bir çoxu xəstəliklərlə mübarizədə əvəzsiz vasitədir. Belə bitkilərə «dərman bitkiləri», yaxud «şəfalı bitkilər» deyirlər. Bütün bunlara görə bitkiləri qorumaq lazımdır.

*Ağacı nə üçün canlı hesab edirik?*



1. *Bitki örtüyünün hansı faydaları vardır? İzah et.*
2. *Günəş şüalarının təsiri ilə yaşıl bitkilərdə hansı qaz yaranır və bu qazın həyat üçün əhəmiyyəti nədir? Şərh et.*
3. *Sən bitkilərin burada qeyd olunmayan daha hansı faydalarını göstərə bilərsən? Fikirlərini yaz.*



## 22. AĞAC ƏKMƏYƏ GEDİRİK



***Aşağıdakı mətndə ağac əkməyin qaydaları yazılıb. Bunları bilmək faydalıdır. Öyrən ki, sən də bu xeyirxah işdə iştirak edəsən.***

Bir dəfə müəllimimiz bizə dedi ki, hazırlıq görün, gələn həftə sonu şəhər ətrafına ağac əkməyə gedəcəyik. Şəhərimizin ətrafında yeni yaşıllıq zolağı salınır. Biz də bu xeyirxah işdə iştirak edəcəyik. İsti və rahat geyinin, özünüzlə əlcək götürməyi unutmayın. Çünki torpaqla işləyəcəksiniz. Torpaqla işləyəndə mütləq əlcək geyinmək lazımdır.

Nəhayət, gözlədiyimiz gün gəlib çatdı. Bütün sinif uşaqları toplaşdılar. Müəllim bizi şəhər kənarına gətirdi. Burada çoxlu adam var idi. Hamı ağac əkirdi. Orada müəllimimiz bizə ağac əkməyin qaydalarını öyrətdi. Bu heç də çətin bir iş deyil. Hər bir uşaq qaydaları öyrənib ağac əkə bilər.

Əvvəlcədən qazılmış ləklərdə çuxurlar açmaq, çuxura bir az yumşalmış torpaq tökmək və ağacın köklərini həmin torpağın üzərinə qoymaq lazımdır. Bunu iki nəfər etsə, daha yaxşı olar. Biri ağacı tutur, digəri köklərin ətrafını bellənmiş torpaqla doldurur. Diqqət etmək lazımdır ki, köklərin arasında boşluq qalmasın. Köklərə bərk torpaq yapışmışsa, onu təmizləmək lazımdır. Çünki bu kimi hallar köklərin qidalanmasını çətinləşdirir və onların qurumasına səbəb olur.



*Ağac əkməyə gedirik*



*Taxta parçasının köməyi ilə səviyyənin müəyyən edilməsi*



*Ağacəkmənin sxemi*



*Yeni salınmış yaşıllıq zolağı*

Çuxuru çox dərin qazmaq olmaz. Ağacın köklərinin başlandığı hissə torpağın üst qatı ilə eyni səviyyədə olmalıdır. Bu səviyyəni çalanın üstünə qoyulmuş taxta parçasının köməyi ilə müəyyən etmək olar.

Torpağı tökə-tökə yüngülcə əllə və ya ayaqla basmaq lazımdır. Ən üst qatı bir az bərk basmaq olar.

Ağacı əkdikdən sonra dərhal sulamaq lazımdır. Onun ətrafında kiçik çala qazır və ora su tökürlər. Yeni əkilmiş ağacın yanına dirək basdırıb bitkini ona bərkitmək lazımdır ki, küləkdən sınmasın. Yeni əkilmiş ağacı havadan asılı olmayaraq sulamaq lazımdır.

Normal inkişaf etməsi üçün ağaclar bir-birindən ən azı 1,5 metr aralı əkilməlidir.

İsti havalarda ağac tez-tez sulanmalıdır. Normal havada isə həftədə azı bir dəfə su vermək olar.

Böyüklərə xeyli kömək etdik. Gəzintimiz çox maraqlı keçdi. Bazar ertəsi məktəbə gələndə gördüklərimizi məktəbdəki dostlarımıza danışdıq.

Sonrakı dərslərimizdə yaşıllığın qorunması haqqında maraqlı layihələr hazırladıq. Müəllimimiz söz verdi ki, bizi tez-tez ağac əkməyə aparacaq.

***1. Torpaqla işləyəndə nə üçün əlcək geyinmək lazımdır? Fikirlərini izah et.***
***2. Ağac əkməyin qaydalarını ardıcıllıqla şərh et.***



# 23. MİKROORQANİZMLƏR



***Təbiətdə bakteriyaların varlığını kim kəşf edib? Bu hadisə nə zaman olub? Bilmək istəyirsənmi? O zaman mətni oxu.***



*Antoni van Levenhuk özü hazırladığı mikroskopla müşahidə apararkən*

**Mikroorqanizmlərin kəşf olunması.** Bir vaxtlar insanlar birələri ən kiçik canlı hesab edirdilər. Əgər 17-ci yüzillikdə hollandiyalı Antoni van Levenhukun məşhur kəşfi olmasa idi, uzun müddət belə də düşünəcəkdilər. Levenhuk yun alveri ilə məşğul olurdu. Onun evində cürbəcür böyüdücü şüşələr var idi. Levenhuk bu şüşələrlə ağac parçalarına, su damlalarına, yarpaqlara baxmağı xoşlayırdı. Sonralar o bu şüşələrdən 250–270 dəfə böyüdə bilən mikroskop da düzəltdi. Bir dəfə o, mikroskopla gölməçədən götürülmüş su damcısına baxanda orada çoxlu xırdaca canlılar gördü. Onların bəziləri dəyirmi, bəziləri uzunsov idi. Bəziləri ağır-ağır hərəkət edir, bəziləri balıq kimi o tərəf-bu tərəfə üzürdü. Levenhuk şüşənin altında gördüklərini kağıza köçürdü. Kiçik canlıları ətraflı təsvir edib, onların şəkillərini çəkdi. Beləliklə, Levenhuk o vaxtadək insanlara məlum olmayan canlı aləmi – mikroorqanizmləri kəşf etdi. «Mikro» yunan sözü olub mənası «çox kiçik» deməkdir. Adını tez-tez eşitdiyimiz bakteriyalar mikroorqanizmlərə aiddir. Mikroorqanizmlərə bəzən qısaca ***mikroblar*** da deyirlər.

***Bakteriyaları nə üçün mikroorqanizmlərə aid edirlər?***









*Bakteriyalar mikroskop altında belə görünür*

**Mikroorqanizmlərin xüsusiyyətləri.** Sonralar Levenhukun hazırladığı mikroskopdan da dəfələrlə çox böyüdən cihazlar düzəldildi. Mikroskoplar böyütmə dərəcəsinə görə müxtəlif olur. Bu cihazlar adi gözlə görünməyən hər hansı varlığı yüz dəfə, min dəfə, hətta daha çox böyüdə bilir. Mikroskopun köməyi ilə aparılan müşahidələr göstərdi ki, mikroorqanizmlər saysız-hesabsızdır. Onlar bir-birindən fərqlənirlər. Bəziləri çox zəifdir, asanlıqla məhv olur. Bəziləri isə, hətta qaynar suda da məhv olmur.



*Şagirdlər müşahidə zamanı*

Evdə valideynlərimiz, məktəbdə isə müəllimimiz bizə mikroblardan qorunmağın vacibliyini söyləyirlər. Çünki bəzi mikroorqanizmlər başqa canlılarda bir çox xəstəliklər törədirlər. Amma elə düşünməyin ki, mikroorqanizmlər yalnız ziyan vururlar. Fəaliyyəti həyatımız üçün çox gərəkli olan mikroorqanizmlər də var. Onların köməyi ilə süd qatığa çevrilir, xəmir acıyır.

Bağırsaqlarımızda xüsusi mikroorqanizmlər yaşayır. Onlar olmasa, həzm prosesi pozular və biz xəstələnərik. Çürüdücü mikroorqanizmlər də var. Onların fəaliyyəti yer üzündə həyatın davam etməsi üçün çox vacibdir. Yer kürəsində hər gün nə qədər canlı ölür. Bu mikrobların fəaliyyəti sayəsində onların qalıqları çürüyüb torpağa qarışır və bitkilərin yaşaması üçün vacib olan qida maddələrinə çevrilir.

***Çürüdücü mikroblar olmasa nə baş verə bilər? İzah et.***





1. ***Hansı canlıları mikroorqanizmlər adlandırırlar? Şərh et.***
2. ***Mikroorqanizmlərin həyatımızda hansı rolu var? Fikrini nümunələrlə izah et.***
3. ***Xəstəlik törədən mikroorqanizmlərdən qorunmaq üçün nə etmək lazımdır? Fikirlərini yoldaşlarınla bölüş.***
4. ***Mikroorqanizmləri necə təsəvvür edirsən? Onların rəsmlərini çək.***

# 24. GÖBƏLƏKLƏR



***Onların həm faydalı qida olduğunu, həm də insanı zəhərləyə biləcəyini deyirlər. Onlar həm xəstəlik törədir, həm də xəstəlikləri müalicə edir.***

***Səncə, göbələklərin əsas xüsusiyyəti nədir?***



**Göbələklərin xüsusiyyətləri.** Göbələk deyəndə yəqin ki, gözünün qabağına yağışdan sonra artan papaqlı canlılar gəlir. Göbələkdə həm bitkilərə, həm də heyvanlara bənzəyən xüsusiyyətlər var. Bu canlılara rütubət çox olan hər yerdə rast gəlmək olar. Göbələklər rütubəti sevir.

**Papaqlı göbələklər.** Şampinyon göbələyi bir çox insanların sevimli qidasıdır. Təbiətdə görməsək belə, ona marketlərdə rast gələ bilərik. Lakin bütün göbələklərdən qida məqsədi ilə istifadə etmək olmaz. Çünki papaqlı göbələklər yeməli və zəhərli olur. Bəzi növlər çox zəhərlidir. Tanımayanlar yeməli və zəhərli göbələkləri fərqləndirə bilməz. Ona görə də göbələklərlə ehtiyatlı davranmaq lazımdır.



qırmızıbaş



tülküqulağı



şampinyon



qara göbələk

*Yeməli göbələklər*



milçəkqıran



solğun əzvay



yalançı kötükgöbələyi



iyli milçəkqıran

*Zəhərli göbələklər*

**Kif və maya göbələkləri.** Adi gözlə görünməyən göbələklərin də həyatımızda böyük rolu var. Çörək, meyvə-tərəvəz isti və rütubətli yerdə qaldıqda üzəri yaşıl və ya ağ kiflə örtülür. Bu, kif göbələkləridir. Kif göbələkləri ərzağı yararsız hala salır. Kiflənmiş qida məhsullarının kifli hissəsini ayırıb qalanından istifadə etmək olmaz. Çünki adi gözlə görünməsə belə, kif göbələyi bütün məhsula yayılmış olur. Bu göbələk zəhərli maddə əmələ gətirir. Kiflənmiş ərzaqdan istifadə etmək sağlamlıq üçün təhlükəlidir.



Kif göbələyi



Çörək məmulatı



Pendir

*Bu ərzaqlar maya göbələkləri vasitəsi ilə hazırlanır*

Maya göbələklərindən çörək-bulka məmulatlarının bişirilməsində, pendir, pivə və başqa ərzaq məhsullarının istehsalında, tibdə dərman vasitələrinin hazırlanmasında istifadə olunur.

**Parazit göbələklər.** Göbələklərin canlılara ziyan vuran növləri də vardır. Bunlar parazit göbələklərdir. Parazit göbələklər təsərrüfat bitkilərində, heyvan və insanların dərisində, daxili orqanlarında xəstəliklər əmələ gətirir. Bunlar göbələk xəstəlikləridir. İnsanlar çətin sağalan bu xəstəliklərdən özlərini necə qoruya bilərlər? Bunun üçün əlləri tez-tez sabunla yumaq vacibdir. Nəzərə almaq lazımdır ki, göbələk xəstəlikləri ayaqqabı və paltar vasitəsilə asanlıqla xəstə insandan sağlam insana keçir. Ona görə də başqa şəxslərə məxsus ayaqqabı və paltarları geyinmək düzgün deyil. Göbələk xəstəliyi yaranmasın deyə hər gün corabları dəyişmək, yatmazdan qabaq ayaqları yumaq lazımdır.



*Parazit göbələyin zədələdiyi kartof, sünbül və ağac*

1. ***Göbələklərdən qida vasitəsi kimi istifadə edərkən nə üçün ehtiyatlı olmaq lazımdır? İzah et.***
2. ***Kif göbələkləri hansı qida məhsullarını zədələyir? Nümunələr göstər.***
3. ***Göbələklərin digər canlılarla əlaqəsi haqqında danış.***
4. ***Göbələk xəstəliklərindən necə qorunmaq olar? Qorunma yollarını yaz.***



* **Parazit** – başqa bir varlığın orqanizmi üzərində və ya içində yaşayıb onun hesabına qidalanan canlı

## 25. HƏŞƏRATLAR



***Düşünmək olar ki, həşəratlar olmasa idi, daha yaxşı olardı. Amma elə deyil. Yer üzündə həyatın davam etməsi üçün həşəratlar da lazımdır. Bilirsənmi niyə? Mövzu bu məsələyə aydınlıq gətirir. Oxusan, həşəratların əhəmiyyətini öyrənərsən.***

**Həşəratların quruluşu.** Biz gündəlik həyatımızda həşəratlarla tez-tez rastlaşırıq. Bunların bəzilərinin qanadları var. Milçək, qarışqa, ağcaqanad, arı... Bəs həşəratlar haqqında biz nələri bilirik?

Həşəratların bədəni üç hissədən: baş, döş və qarıncıqdan ibarətdir. Başda gözcük və bığcıq olur. Üç cüt ayaqları var.



*Həşəratlar*




*Həşəratların bədən quruluşu*

***Şəkildəki həşəratlardan hansılarını tanıyırsan? Tanıdığın həşəratların adlarını söylə.***



**Ziyanverici həşəratlar.** Həşəratların bir hissəsi bitkilərlə qidalanır. Onlar yabanı və mədəni bitkiləri yeyir, təbiətə və insanlara ziyan vururlar.

Milçək ən çox natəmiz yerlərdə, zibilliklərdə uçur. Zibillikdə isə çoxlu xəstəliktörədən mikroblar olur. Onlar milçəyin qanadlarına, ayağına, bədəninə yapışır. Milçək uçub qida məhsullarının üzərinə qonanda həmin mikroblar qida məhsullarına düşür. Belə qida məhsulunu yeyən insan isə xəstələnir.



*Ziyanverici həşəratlar*

Ağcaqanadlar rütubətli yerlərdə daha çox olur. Bəzi xəstəliklər ağcaqanadlar vasitəsilə bir insandan digərinə keçir. Xəstə insanı sancmış ağcaqanad sağlam insanı sancanda onun xəstələnməsinə səbəb olur.

**Faydalı həşəratlar.** Saydıqlarımızdan belə nəticə çıxarmaq olar ki, həşərat elə ziyanverici deməkdir. Amma nəticə çıxarmağa tələsmə. Faydalı həşəratlar da var. Arı da həşəratdır. Amma gör o necə zəhmətkeş canlıdır! Arı balını min bir dərdin dərmanı adlandırırlar. Çox faydalı qida məhsulu olan bal həm də mikrobları məhv edir.

İnsanlar qədim zamanlardan təbii ipək almaq üçün ipəkqurdu bəsləyirlər. İpəkqurdu tut ağacının yarpağı ilə qidalanır. Bu yarpaqdan o nazik saplar hazırlayıb ondan barama toxuyur. Baramaçılar ipəkqurdunun sarıdığı baramadan nazik saplar alırlar. Bu saplardan zərif ipək parçalar toxunur.

Bəzi həşəratlar ziyanverici həşəratlarla qidalanır və bununla da təbiəti qoruyurlar. Həşəratlar tozcuqları bir çiçəkdən başqa çiçəyə daşıyaraq bitkilərin bar verməsinə vasitə olur. Hətta ziyanverici həşəratlar belə təbiətə lazımdır. Çünki onlar bir çox quşların, balıqların və digər heyvanların qidasıdır.



*Faydalı həşəratlar*

**Qanadı var uçmağa,**
**İynəsi var sancmağa,**
**Sevir işi, zəhməti,**
**Odur ki, var hörməti.**
***(ıra)***

**Bir quşum var alaca,**
**Uçar qonar ağaca,**
**Özünə bir ev tikər**
**Nə qapı qoyar, nə baca.**
***(amarab)***



1. ***Həşəratların quruluşu necədir? Şərh et.***
2. ***Şəkildə təsvir olunan həşəratların faydası haqqında danış.***
3. ***Milçəyi nə üçün zərərli həşərat hesab edirik? Fikrini əsaslandır.***
4. ***Həşəratların digər canlılarla əlaqəsinə aid nümunələr göstər. Fikrini izah et.***

## 26. İNSAN ƏTRAFI NECƏ DƏRK EDİR?



***İnsan digər canlılardan fərqlənir. O öz fəaliyyətini qurur: təhsil alır, işləyir, qurub-yaradır. Bəs insan ətraf aləmi necə dərk edir? Bunu öyrənmək üçün bu mətni diqqətlə oxu.***

**İnsanın duyğu orqanları.** Ətrafı dərk etməkdə insanın duyğu orqanları böyük rol oynayır. Duyğu orqanlarımız bunlardır: ***göz, qulaq, dil*** və ***burun***. Bundan başqa, bizim ***lamisə*** deyilən bir duyğu hissimiz də vardır. Bu, toxunmaqla hissetmədir.

İnsan gözü ilə ətrafındakı varlıqları, onların rəngini, ölçüsünü, formasını görür. Qulağı vasitəsilə ətraf aləmdəki müxtəlif səsləri duyur. O, eşitmə duyğusunun köməyi ilə insanların, texnikanın, təbiət hadisələrinin yaratdığı səsi bir-birindən ayırır, musiqi dinləyib zövq alır.

İnsanın danışıq üzvlərindən biri olan dil həm də əsas dadbilmə orqanıdır. Dilimiz vasitəsilə biz acını, turşu, şirini və başqa dadları bir-birindən ayırırıq.



Dadbilmə



Qoxubilmə



Görmə



Eşitmə

*Duyğu orqanlarının işi*



***İnsan ətraf aləmi dərk etməsi nəticəsində daha hansı işləri görür?***

Burnumuzla nəfəs alıb nəfəs veririk, yəni tənəffüs edirik, həm də ətrafımızdakı qoxuları hiss edirik. Qoxubilmə duyğusu insan üçün çox mühümdür. Bu duyğunun köməyi ilə biz gözəl ətri hiss etməklə bərabər, bəzi təhlükə əlaməti olan qoxuları da alırıq. Məsələn, yanıq iyi hiss edərkən yanğın təhlükəsi olan yerləri nəzərdən keçiririk. Qaz iyi hiss edərkən ehtiyat tədbirləri görür, dərhal qapı-pəncərəni açır və böyükləri xəbərdar edirik.

Biz əlimizlə əşyalara toxunub onların yumşaq, bərk, isti, soyuq olduğunu bilirik.

**İnsan ali varlıqdır.** İnsanın malik olduğu duyğu orqanları başqa canlılarda da vardır. Bir çox heyvanların görmə və eşitmə qabiliyyəti insandan daha yaxşı inkişaf etmişdir. Məsələn, qartalın uzağı görmə qabiliyyəti, itin iybilmə qabiliyyəti insanınkından dəfələrlə güclüdür. Amma bütün bu üstünlüklər həmin heyvanları insanlardan daha bacarıqlı və ağıllı etmir. Bunun səbəbi nədir?

Bunun səbəbi odur ki, insan digər canlılardan fərqli olaraq təfəkkürə* malikdir. Təfəkkürü sayəsində insan öz fəaliyyətini ardıcıl, nizamla qurur. Başqalarının təcrübəsindən istifadə edir. O, hətta görmə, yaxud eşitmə duyğusundan məhrum olsa belə, digər duyğu orqanlarının və təfəkkürünün köməyi ilə ətraf aləmi dərk edir.



***Dünyanın dərk olunmasında hansı duyğu orqanının işini daha vacib hesab edirsən? Fikrini əsaslandır.***

**Altı inci, mirvari,**
**Üstü inci, mirvari,**
**Arasında bir yarpaq.**
***(lid)***

**Alaca mənzər,**
**Dünyanı gəzər.**
***(zög)***

**Nə baltadır, nə kərki,**
**Bütün kəsərdən iti.**
***(lığa)***

***1. İnsan ətraf aləmi nəyin sayəsində dərk edir? Şərh et.***
***2. Hansı heyvanlara təlim vermək daha asandır? Səncə nə üçün?***
***3. Müxtəlif meyvələrdən dilimlər kəsib bir qabda qarışdır. Sonra gözlərini bağla və dilimlərdən yeməklə onların hansı meyvə olmasını müəyyən et.***
***4. «Nitq, fikir, yaradıcılıq» sözlərindən istifadə etməklə «İnsan ali varlıqdır» adlı esse yaz .***



* **Təfəkkür** – fikirləşmək, düşünmək bacarığı

## 27. TEXNOGEN HADİSƏ VƏ CANLILAR ALƏMİ



***Fövqəladə hadisələr təbii və texnogen xarakterli olur. Bunların hər ikisi insanların həyat və fəaliyyətinə ziyan vurur. Bu cəhətdən bir-birinə oxşasalar da, onları yaradan səbəblər müxtəlifdir. Sən artıq təbii fövqəladə hadisələr haqqında bilirsən. Bəs texnogen xarakterli fövqəladə hadisələr necə baş verir? Aşağıdakı mətn bu mövzudan bəhs edir.***

**Texnogen hadisələrin növləri.** Təbii xarakterli fövqəladə hadisələr lap qədim zamanlardan insanlara tanışdır. Texnogen xarakterli fövqəladə hadisələr isə insanların fəaliyyəti, texnikanın sürətli inkişafı nəticəsində yaranır. Bu cür hadisələr böyük sənaye müəssisələrində, dəmiryol, avtomobil nəqliyyatında və başqa sahələrdə baş verir.

Texnogen xarakterli fövqəladə hadisələri aşağıdakı kimi qruplaşdırmaq olar:

- Nəqliyyat qəzaları;
- Yanğınlar və partlayışlar;
- Zəhərli maddələrin yayılması ilə baş verən qəzalar;
- Böyük su qurğularında baş verən qəzalar.

Bu hadisələr təsərrüfata böyük ziyan vurmaqla yanaşı, insan həyatı üçün də böyük təhlükə yaradır. Texnogen qəzaların baş verdiyi ərazidə insanlar arasında müxtəlif xəstəliklər yayıla bilər.

**TEXNOGEN XARAKTERLİ FÖVQƏLADƏ HADİSƏLƏR**

Nəqliyyat qəzaları



Yanğınlar və partlayışlar



Böyük su qurğularında baş verən qəzalar









Zərərli maddələrin yayılması ilə müşayiət olunan qəzalar

**Texnogen hadisələr və ətraf mühit.** Texnogen qəzalar yanğın, partlayış və s. bu kimi formalarda təzahür edir. Böyük miqyaslı qəzalar, hətta ətraf mühitə təsir göstərib ciddi dəyişikliklərə səbəb ola bilər.



***Texnogen hadisələrin qarşısını necə almaq olar?***

Keçən əsrdə Ukrayna Respublikasının Çernobıl şəhərində Atom Elektrik Stansiyasında qəza baş verdi. Hadisə zamanı 7000-ə yaxın insan həlak oldu, minlərlə insan ömürlük şikəst qaldı. Hadisədən ətraf mühit də çox ziyan çəkdi. Bu faciədən sonra havaya, suya və torpağa ziyanlı maddələr qarışdı. Bu şəhər respublikamızın sərhədlərindən uzaqda olsa da, qəza, hətta ölkəmizə də təsir göstərdi. Bəzi meyvə və tərəvəz bitkilərinin məhsuldarlığı azaldı, keyfiyyət göstəriciləri aşağı düşdü.



*Neft dağılmış dənizdə*



*Formasını dəyişmiş pomidor*

Su hövzələrinin dibindən neft çıxarılması və su yolları ilə neft daşınmaları zamanı baş verən qəzalar da təbiətə çox ziyan vurur. Belə qəzalarda neftin dağılması nəticəsində suyun üzərində böyük neft ləkələri yaranır. Bu isə çoxlu sayda su canlısının həyat şəraitini yararsız hala salır.

Təbii fəlakətlər də texnogen qəzalara səbəb ola bilir. Təbii fəlakət zamanı bəzən iri zavodlarda, neft sənayesi müəssisələrində, dəmiryolunda və başqa yerlərdə qəzalar baş verir. Bu halda ətrafa və insanlara dəyən ziyanın həcmi daha da böyüyür. Yaponiyada 2011-ci ildə güclü zəlzələdən sonra atom elektrik stansiyasında partlayış baş verdi. Həmin hadisə zamanı torpağa çoxlu miqdarda zərərli maddələr dağıldı. Ona görə də indi orada formasını dəyişmiş bitkilərə tez-tez rast gəlinir.

Təbii fəlakətlərdən fərqli olaraq texnogen qəzaların qarşısını almaq olar. Bunun üçün insanlar sənaye müəssisələrində, nəqliyyatda və digər qəza təhlükəli yerlərdə qaydalara ciddi əməl etməlidirlər.



***1. Texnogen və təbii xarakterli fövqəladə halları oxşar və fərqli cəhətlərinə görə müqayisə et.***

***2. Texnogen hadisələr ətraf mühitə necə təsir göstərir? Fikrini əsaslandır.***

***3. Hansı texnogen qəzanı ən təhlükəli hesab edirsən? Bu qəza baş verərsə, vura biləcəyi ziyan haqqında mətn tərtib et.***

# Azərbaycan – yurdum mənim

28. Müstəqil Azərbaycan
29. Qədim Azərbaycan
30. Azərbaycan ordusu
31. Qonşularımız
32. Azərbaycanın təbiəti
33. Doğma Xəzər
34. Bol nemətli yurdumuz



*Azərbaycan Respublikasının bayrağı, gerbi və himni Azərbaycan dövlətinin müstəqilliyini təcəssüm etdirən müqəddəs rəmzlərdir.*

***Heydər Əliyev,***
*Azərbaycan xalqının ümummilli lideri*





## 28. MÜSTƏQİL AZƏRBAYCAN



***Hər bir dövlətin öz rəmzləri var. Müstəqil Azərbaycanımızın rəmzləri nə zaman yaranmışdır? Bu haqda daha geniş məlumat almaq istəyirsənsə, bu mətni oxu.***

**Dövlət rəmzləri**. Vətənim Azərbaycandır. Bu sözü hər bir azərbaycanlı qürurla söyləyir. Vətənini insan özü seçmir. Yaşadığın yeri seçə bilərsən, ancaq vətəni seçmək mümkün deyil.

Azərbaycan Respublikası 1918-ci il mayın 28-də yaradılmışdır. Bu respublika Azərbaycan Xalq ***Cümhuriyyəti**** adlanırdı. Azərbaycan dövlətinin quruculari – Məhəmməd Əmin Rəsulzadə, Əlimərdan bəy Topçubaşov, Fətəli xan Xoyski və başqaları qısa müddət ərzində ölkəmizin üçrəngli bayrağının qəbul edilməsi, Dövlət himninin və gerbinin, dövlət orqanlarının yaradılması üçün çox işlər gördülər.



***Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcılarından kimləri tanıyırsan?***




*Dövlət bayrağı meydanı*

**Azərbaycan Xalq Cümhuriyyətinin Sovet Rusiyası tərəfindən işğal edilməsi.** 1920-ci il aprelin 28-də Azərbaycan Xalq Cümhuriyyəti Sovet Rusiyası tərəfindən işğal olundu. Azərbaycan müstəqilliyini itirdi və 15 respublikanı birləşdirən ***Sovet İttifaqının**** tərkibinə qatıldı. O zamanlar ölkəmiz Azərbaycan Sovet Sosialist Respublikası adlanırdı.

**Müstəqilliyin bərpası.** 1991-ci il 18 oktyabrda Azərbaycan Sovetlər Birliyinin tərkibindən çıxaraq müstəqilliyini bərpa etdi. Ona görə də xalqımız hər il 18 oktyabrı Müstəqillik Günü kimi qeyd edir. Ölkəmiz müstəqilliyini bərpa edəndən sonra Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti tərəfindən qəbul olunmuş üçrəngli bayrağımız müstəqil Azərbaycanın bayrağı oldu.



***Azərbaycan neçə il Sovet İttifaqının tərkibində olmuşdur?***

---

* **Cümhuriyyət** – respublika
* **İttifaq** – birlik

1919-cu ildə musiqisini Üzeyir Hacıbəyli, sözlərini şair Əhməd Cavadın yazdığı «Azərbaycan marşı» Dövlət himnimiz qəbul edildi. Bunun ardınca Azərbaycan Xalq Cümhuriyyəti dövründə hazırlanmış gerb də müəyyən dəyişikliklərlə təsdiq olundu.



*Azərbaycan Respublikasının Dövlət gerbi*

**Dövlətimizin əsas qanunu.** 1995-ci il 12 noyabrda ümumxalq səsverməsi ilə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi. Azərbaycan Respublikasının Konstitusiyası onun əsas qanunudur. Konstitusiyamızda ölkəmizin vətəndaşlarının hüquq və azadlıqları təsbit olunmuşdur.

Konstitusiyamıza görə, Azərbaycan dövləti demokratik respublikadır. Dövlətimizə xalq tərəfindən seçilmiş prezident başçılıq edir. Dövlətimizin ərazisi toxunulmazdır. Azərbaycan Respublikasının təhlükəsizliyini və müdafiəsini onun Silahlı Qüvvələri təmin edir. Dövlət dilimiz Azərbaycan dilidir. Pul vahidimiz Azərbaycan manatıdır. Qanunlarımızı Milli Məclis qəbul edir. Milli Məclisin deputatları xalq tərəfindən seçilir. Ona görə onlara millət vəkili də deyirlər.

***Konstitusiyamızı nə üçün dövlətimizin əsas qanunu adlandırırlar?***





Azərbaycan bayrağının eni onun uzunluğunun yarısına bərabərdir. Biz bayrağımızın şəklini çəkəndə, yaxud onu rəngli kağızlardan hazırlayanda ölçülərinin nisbətini pozmamalıyıq. Bayrağımızı, eləcə də gerbimizi təsvir edərkən onun elementlərini, himnimizi oxuyarkən mətnin sözlərini dəyişmək olmaz.



1. ***Bayrağımız hansı binaların qarşısında asılır? Nümunələr göstər.***
2. ***Dövlət gerbimizin təsviri ilə hansı sənədlərdə qarşılaşmısan? Bu sənədlərin adlarını söylə.***
3. ***Azərbaycanın Dövlət himni hansı tədbirlərdə səslənir? Nümunələr göstər.***
4. ***«Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir*» adlı təqdimat hazırla.***

---

* **Varis** – bir işi davam etdirən, davamçı

# 29. QƏDİM AZƏRBAYCAN



***Əvvəlki mövzudan Azərbaycan Respublikasının 1918-ci ildə yarandığını öyrəndin. Bəs bundan qabaq Azərbaycan yox idimi? Əlbəttə, var idi! 1918-ci il Azərbaycanın müstəqil dövlət olduğunu bütün dünyaya bəyan etdiyi tarixdir. Bu tarixdən əvvəl ölkəmizdə baş verən hadisələri bilmək üçün bu mətni də oxu.***



*Müasir Bakı*

Bu gün xarici ölkələrdən gələn qonaqlar respublikamızın paytaxtı Bakı şəhərinin dünyanın ən gözəl şəhərlərindən biri olduğunu söyləyirlər. Son illər Azərbaycanımız çox dəyişmiş və gözəlləşmişdir. Bəs keçmişdə ölkəmiz necə olmuşdur?

**Bakı necə inkişaf etdi?** Biz 1918-ci ildən əvvələ qayıda bilsəydik, o zamankı Bakını gəzərdik. «O olmasın, bu olsun» filmindən hamıya tanış olan qoçuları, bəyləri, tacirləri, çadralı qadınları görərdik. Həmin dövrdə burada çoxlu neft mədənləri yaranırdı. Mədənlərdə fəhlələr əl üsulu ilə neft quyuları qazırdılar. Bakıda çoxlu neft və başqa sərvətlər olduğunu öyrənən əcnəbi milyonçular daha da varlanmaq üçün bura gəlirdilər. Onlar yerli sahibkarlarla birlikdə zavod və fabriklər tikirdilər. Beləliklə, köhnə Bakının siması çox dəyişdi.



***Qədim Bakının siması nə üçün sürətlə dəyişdi?***

**Azərbaycan xanlıqları zamanında.** Bir az da keçmişdə Bakı şəhəri Azərbaycan xanlıqlarından birinin paytaxtı idi. İndi tarixi abidə kimi qorunan İçərişəhərdəki Şirvanşahlar saray kompleksində xan və onun ailəsi, saray adamları yaşayırdılar. O zaman Azərbaycanda Şamaxı, Şəki, Qarabağ, Gəncə, İrəvan, Lənkəran, Təbriz, Ərdəbil və başqa xanlıqlar var idi.



*Keçmişdə bazar meydanı*

**Keçmişin qüdrətli dövlətləri**. Daha keçmişdə isə Azərbaycan torpaqlarının hamısı I Şah İsmayılın yaratdığı böyük Səfəvi dövlətinin tərkibində olmuşdur. I Şah İsmayıl həm də görkəmli Azərbaycan şairidir. O, Xətai imzası ilə gözəl şeirlər yazmışdır.

Səfəvilər dövlətindən əvvəl isə Azərbaycan torpaqlarında qüdrətli Eldənizlər dövləti mövcud idi. Dahi şairimiz Nizami Gəncəvi və böyük Azərbaycan memarı

Əcəmi Naxçıvani bu dövlətin çiçəkləndiyi dövrdə yaşayıb-yaratmışlar. Bundan daha əvvəldə Azərbaycan ərazisində qədim Albaniya dövləti vardı. Albaniya hökmdarı Cavanşir dövrünün ən bacarıqlı dövlət başçılarından biri idi.

**Azərbaycan Daş dövründə.** Sonra biz daha keçmişə, qədim insanların yaşadığı Daş dövrünə gedirik. O zaman insanlar hələ metalı kəşf etməmişdilər. Onlar bütün əmək alətlərini daşdan düzəldirdilər. Ona görə də bu dövrü Daş dövrü adlandırırlar.



*Qayaüstü tasvirlər. Qobustan*

Bakı yaxınlığındakı Qobustan qayaları Daş dövrü insanlarının məskəni idi. Onların Qobustan qayalarına cızdığı təsvirlər dövrümüzə qədər gəlib çıxmışdır. Bu rəsmlərdə heyvanlar, qədim insanların ov etmələri, onların yallı rəqsi və başqa səhnələr təsvir olunmuşdur. İndi ***Qobustan Dövlət Tarix və Bədii Qoruğu*** tarixi abidə kimi qorunur.

Bundan daha əvvəl isə Azıx mağarasında ilk insanlar yaşamışlar. Azıx – Azərbaycanda, Füzuli rayonunun ərazisində yerləşən qədim mağaranın adıdır. Bu mağara bütün dünyada ən qədim insan məskənlərindən biri hesab olunur. Azıx mağarası sübut edir ki, Azərbaycan çox qədim ölkədir.



*Qədim insanların yallı rəqsi*

Tarixi abidələr keçmişimizi öyrənməkdə bizə kömək edir. Ona görə də hər bir xalq öz tarixi abidələrini qorumalıdır. Bunlar xalqın ***milli-mədəni irsidir****.



***1. Tarixi abidələr nə üçün dövlətimiz tərəfindən qorunur? İzah et.***
***2. Mətndə təsvir olunan hadisələri keçmişdən başlayıb indiyə qədər ardıcıllıqla düz. Hər dövrə uyğun bildiyin adı ver.***
***3. 100 ildən sonra Azərbaycanın şəhər və kəndləri necə dəyişəcək? Sən bunu necə təsəvvür edirsən? Fikirlərini yaz.***
***4. Bakı Metropoliteninin hansı stansiyalarını tanıyırsan? Onlardan hansıları görkəmli şəxsiyyətlərin adını daşıyır? Həmin adları sadala.***

---

* **İrs** – əvvəlki dövrlərdən, əsrlərdən qalmış mədəniyyət əsərləri

# 30. AZƏRBAYCAN ORDUSU



***Azərbaycanın Milli Ordusu nə zaman və necə yaranmışdır? Onu yaradanlar necə insanlar idilər? Bu suallara cavab tapmaq üçün aşağıda verilmiş mətni oxu.***



*Səməd bəy Mehmandarov*



*Əli ağa Şıxlinski*

**Azərbaycan ordusunun yaranması.** 1918-ci ilin 28 mayında Azərbaycan Xalq Cümhuriyyəti yarandı. Ərazisini və sərhədlərini qorumaq üçün dövlətin ordusu olmalıdır. Ona görə də 1918-ci il iyunun 26-da Azərbaycanın Milli Ordusu yaradıldı.

Azərbaycan hökuməti ordunu yaratmaq işini bacarıqlı təşkilatçı general Səməd bəy Mehmandarova tapşırdı. Bu çətin işdə ona təcrübəli hərbçi general Əli ağa Şıxlinski kömək etdi. Səməd bəy Mehmandarov hərbi nazir, Əli ağa Şıxlinski isə onun müavini oldu. Onların hər ikisi öz xalqını ürəkdən sevən vətənpərvər azərbaycanlı idilər.

Azərbaycan dövləti hələ yenicə yaranmışdı. Əsgərlərə geyim, ərzaq çatışmırdı. Onlar hərbi sahədə təcrübəsiz idilər. Çünki o zamana qədər azərbaycanlı əhali orduda xidmət etməmişdi.

Səməd bəy Mehmandarov və Əli ağa Şıxlinskinin böyük səyi nəticəsində Milli Ordumuz təşkil olundu. Ordumuzda tüfənglər, pulemyotlar, hərbi qatar, təyyarə, zirehli avtomobil və gəmilər var idi.

**Azərbaycan Xalq Cümhuriyyətinin işğalından sonra.** Azərbaycan Sovet Rusiyası tərəfindən işğal ediləndən sonra onun Milli Ordusu ləğv edildi. Sovetlər Birliyinə daxil olan ölkələrin bir ümumi ordusu – Sovet ordusu var idi. Azərbaycanlı gənclər də bu orduda xidmət edirdilər. II Dünya müharibəsində Sovet ordusunun qələbə çalmasında azərbaycanlı əsgərlərin də payı olmuşdur. Ona görə də 9 May – Qələbə günü Azərbaycanda bayram kimi qeyd olunur.



*Yeni yaranmış Azərbaycan ordusunun əsgərləri. 1918-ci il*

**Milli ordumuz müstəqilliyin bərpasından sonra.** Azərbaycan Respublikası müstəqilliyini bərpa edəndən sonra bütün dövlət atributları kimi Milli ordumuz da yenidən quruldu. İndi bizim qüdrətli ordumuz vardır. Xalqı-



*Milli Ordumuzun hərbi paradı*

mız hər il 26 iyunda Azərbaycan Respublikası Silahlı Qüvvələri Gününü təntənə ilə qeyd edir. Milli Ordumuzun hərbi paradı keçirilir.

**Aprel döyüşləri.** Bu gün ordumuz işğal olunmuş torpaqlarımızı müharibə yolu ilə azad etməyə qadirdir. 2016-cı ilin aprelində baş verən döyüşlər zamanı Azərbaycan ordusu bir neçə vacib yüksəkliyi ələ keçirdi. Ermənistan ordusunun əsgərləri bu yüksəkliklərdən kəndlərimizi atəşə tuturdular. Aprel döyüşlərindən sonra Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin əhalisi öz doğma kəndlərinə qayıtdı. Aprel döyüşləri Azərbaycan ordusunun qüdrətli olduğunu sübut etdi.

***Milli ordu nə üçün dövlətin əlamətlərindən biri hesab olunur?***



***Aprel döyüşləri haqqında məlumat topla.***



***1. Azərbaycan ordusu nə vaxt və hansı məqsədlə yaranmışdır?***
***2. Azərbaycan Demokratik Respublikasının ordusuna ilk dəfə rəhbərlik edən hərbçilər haqqında danış.***
***3. Azərbaycan xalqı nə üçün torpaqlarını azad etməkdə dinc yola üstünlük verir?***
***4. «Milli ordumuz dünən və bu gün» adlı kiçik inşa yaz.***



# 31. QONŞULARIMIZ



***İnsan öz qonşuları ilə mehriban dolanmaq istəyir. Ölkələrin də qonşuluğu insanların qonşuluğuna bənzəyir. Sən Azərbaycana qonşu olan dövlətlər haqqında nə bilirsən?***

**Beş ölkənin əhatəsində.** Azərbaycan Respublikası quruda beş ölkə ilə həmsərhəddir. Bunlar Türkiyə Respublikası, Rusiya Federasiyası, İran İslam Respublikası, Ermənistan və Gürcüstan respublikalarıdır. Respublikamızdan şərqdə isə Xəzər dənizi yerləşir. Rusiya Federasiyası Azərbaycandan şimaldadır. İran İslam Respublikası isə Azərbaycandan cənubda, Araz çayının sağ sahilində yerləşir. Gürcüstan və Ermənistan Respublikaları isə Azərbaycandan qərbdədir. Ölkəmiz cənub-qərbdən həm də qardaş Türkiyə Respublikası ilə həmsərhəddir.

Atalar deyiblər ki, yaxın qonşu uzaq qohumdan yaxşıdır. Amma bunu yaxşı qonşu haqqında deyiblər. Pis qonşu öz qonşusuna yalnız narahatlıq yaradır. Qonşular nə qədər mehriban dolansalar, həyatları bir o qədər dinc olar. Azərbaycan Respublikası öz qonşuları ilə mehribanlıq və dostluq şəraitində yaşamağa çalışır. Azərbaycanlılar duz-çörəyi müqəddəs tuturlar. Qonşuluq etdiyi, çörək kəsdiyi insana xəyanət etməyi ata-babalarımız həmişə günah sayıblar.




*Azərbaycana qonşu dövlətlər*

**Azərbaycanın qonşu ölkələrlə münasibətləri.** Şimal qonşumuz Rusiya Federasiyası ərazisinə görə dünyada ən böyük dövlətdir. Rusiyada xeyli soydaşımız yaşayır və işləyir. Bu gün Azərbaycanla Rusiyanı mehriban qonşuluq əlaqələri bağlayır.

İran İslam Respublikasının Azərbaycanla sərhəd ərazilərində qədim zamanlardan azərbaycanlılar yaşayırlar. Azərbaycanla İran arasında mehriban münasibətlər vardır.

Gürcüstan əhalisinin də xeyli hissəsi azərbaycanlılardır. Onlar burada tarixən Borçalı adlanan ata-baba yurdunda yaşayırlar. Azərbaycan dövləti Gürcüstanla dostluq əlaqələri saxlayır.

Türkiyə Respublikası Azərbaycanın ən yaxın dostu, qardaşıdır. Türkiyə haqqında danışanda «biz bir millət, iki dövlətik» deyirik.

Azərbaycan vətəndaşları bu ölkələrin hər birinə gedib-gələ bilir. Bu ölkələrdən də respublikamıza çoxlu turist gəlir.

Ermənistanda indi bir nəfər də azərbaycanlı yaşamır. Ermənistan – Azərbaycan Dağlıq Qarabağ münaqişəsi nəticəsində Azərbaycan Respublikası ərazisinin 20 faizi işğal olunmuş, əhalinin xeyli hissəsi köçkünə çevrilmiş, minlərlə insan həlak olmuş, yaralanmış və itkin düşmüşdür. Müharibə vəziyyəti bu gün də davam edir. Ermənistanla müharibə Azərbaycanın mədəni irsinə ciddi ziyan vurmuşdur.

***Ermənistan Respublikasında bir nəfər də azərbaycanlının yaşamaması nəyi göstərir?***





***1. Azərbaycan hansı ölkələrlə qonşudur? Bu ölkələrin adlarını söylə.***

***2. Aşağıda verilmiş pulların hansı ölkələrə aid olduğunu müəyyənləşdirib dəftərinə yaz.***




***3. Ermənistanın işğalçı siyasəti respublikamıza necə ziyan vurmuşdur? Fikirlərini nümunələrlə əsaslandır.***

# 32. AZƏRBAYCANIN TƏBİƏTİ



***Azərbaycanın təbiəti necədir? Dövlətimiz Azərbaycanın təbiətinin qorunması üçün nə edir? Bu mətndə bu suallara cavab tapa bilərsən.***




*Azərbaycan Respublikasının ərazisi*

**Dağlarımız, düzənliklərimiz və çaylarımız.** Azərbaycan Respublikası Avrasiya materikində yerləşir. Respublikamız Böyük Qafqaz, Kiçik Qafqaz və Talış dağları ilə əhatə olunmuşdur. Böyük Qafqazda Bazardüzü, Şahdağ, Tufandağ, Kiçik Qafqazda Qapıçıq, Alagöz Azərbaycanın ən uca dağ zirvələridir.

Ölkəmizdə geniş Qarabağ, Mil, Şirvan və Muğan düzənlikləri vardır.

Kür və Araz Azərbaycanın ən böyük çaylarıdır. Bu çaylar Türkiyə dağlarından axıb gəlir, Azərbaycanın ərazisində birləşərək Xəzər dənizinə tökülür. Kür və Araz çaylarından başqa, Qanıx, Qabırrı, Samur Azərbaycanın ən böyük çaylarıdır.



*Eldar şamı*

**Bitki və heyvanlar aləmi.** Azərbaycanda meşələrin sahəsi çox deyil, amma Azərbaycanın bitki örtüyü çox zəngindir. Respublikamızda təxminən 4500 bitki növü var. Yurdumuzda dəmirağac, Eldar şamı, saqqızağacı kimi qiymətli, nadir ağaclar bitir. Dünyada yeganə təbii Eldar şamı meşəliyi Azərbaycandadır.



*Dəmirağac*

Dəmirağac 200 ilə qədər yaşayır. Bu bitkiyə «dəmirağac» adını çox möhkəm gövdəsinə görə vermişlər. Əvvəllər ondan körpülərin tikilməsində, maşın və alətlərin bəzi hissələrinin hazırlanmasında istifadə olunurdu.

Meşə, çöl və dağlarımız qiymətli dərman bitkiləri ilə zəngindir. Azərbaycanın müxtəlif bölgələ-

rində biyan, çaytikanı, sumaq, kəklikotu, yovşan, boymadərən, zirə, cirə və başqa şəfalı bitkilər geniş yayılmışdır.

Respublikamızın heyvanlar aləmi də çox zəngindir. Burada çoxlu balıq, suda-quruda yaşayan, sürünən, quş və məməli heyvan növləri vardır. Azərbaycanın dağlarında, meşə və çöllərində məməlilərdən bəbir, xallı maral, ceyran, ayı, dələ, canavar, tülkü, yenot və başqa heyvanlar yaşayır. Sürünənlər arasında zəhərli ilanların bir neçə növü vardır.






Respublikamızda yaşılbaş ördək, qızılqaz, qara leylək, turac və çoxlu sayda başqa qüş növü yaşayır və qışlayır.

***Bu heyvanların adlarını söylə.***



**Qoruqlar.** Azərbaycan dövləti bu zəngin heyvanlar aləmini qorumaq məqsədilə qoruqlar, milli parklar və yasaqlıqlar yaratmışdır. Ölkəmizin təbiətinin mühafizəsində Zaqatala, Qızılağac, İlisu, Bəsitçay və digər dövlət təbiət qoruqla-rının böyük rolu var. Qoruqların ərazisi ciddi mühafizə olunur. Xüsusi icazə almadan kənar şəxslərin qoruq ərazisinə girməsinə icazə verilmir.

***Qoruqlar, yasaqlıqlar və Milli Parkların əhəmiyyəti haqqında danış.***



**Yasaqlıqlar və Milli Parklar**. Respublikamızda Şəki, Qarayazı-Ağstafa, İsmayıllı, Qusar, Arpaçay kimi dövlət təbiət yasaqlıqları, Altıağac Milli Parkı, Abşeron Milli Parkı, Göygöl Milli Parkı və başqa milli parklar yaradılmışdır. Yasaqlıqlarda və milli parklarda nadir təbiət abidələri mühafizə olunur. Qoruqlardan fərqli olaraq yasaqlıqlara və milli parklara təbiətə ziyan vurmamaq şərtilə xüsusi icazə almadan da girmək olar. Yasaqlıqlarda istirahət evləri, turizm mərkəzləri tikilə bilər. Burada ov etmək, balıq tutmaq, göbələk yığmaq və mal-qara otarmağa qismən icazə verilir.

***1. Azərbaycanın ən uca dağ zirvələrinin adlarını söylə.***
***2. Ölkəmizdə tanıdığın çayların adlarını sadala.***
***3. Ölkəmizin bitki və heyvanlar aləmi haqqında danış.***
***4. Böyüklərdən Azərbaycanda bitən dərman bitkilərinin adını soruşub öyrən və dəftərinə yaz.***



# 33. DOĞMA XƏZƏR



***Xəzəri nə üçün sevirik? Onun hansı sərvətləri var? Xəzəri hansı təhlükə gözləyir? Bunun qarşısını necə almaq olar? Bu suallar ətrafında düşünmək üçün bu mövzu sənə kömək edə bilər.***



Abşeron yarımadası

**Dəniz, yoxsa göl?** Respublikamız şərqdən Xəzər dənizi ilə əhatə olunmuşdur. Yay aylarında Xəzərin qızılı qumlu sahilləri insanlarla dolu olur. İnsanlar burada istirahət edir, çimir və günəş vannası qəbul edirlər.

Qədim zamanlarda Xəzəri müxtəlif adlarla adlandırmışlar. Kaspi də Xəzərin tarixi adlarından biridir. Bu adların hər ikisi uzaq keçmişdə onun sahilində yaşamış qədim türk tayfalarının adı ilə bağlıdır. Bir vaxtlar Xəzərin suları Qız qalasına qədər çatırmış. İndi isə dəniz Qız qalasından xeyli aralanıb.

Ərazisi dəniz kimi böyük olduğuna və dənizə aid bir çox xüsusiyyətlərinə görə Xəzəri dəniz adlandırırlar. Əslində, Xəzər nəhəng göldür. O, dünyanın ən böyük gölüdür. Dənizin göldən əsas fərqi bilirsənmi nədir? Dəniz okeanla ensiz su sahəsi ilə birləşmiş olur. Bu ensiz su sahəsinə ***boğaz*** deyilir. Gölün isə okeanla əlaqəsi olmur. Dənizin suyu duzlu olur. Gölün suyu isə həm içməli, həm də duzlu ola bilər.


***Ada və yarımadanın fərqini izah et.***

**Abşeron yarımadası. Pirallahı.** Azərbaycanın xəritəsində Xəzərin içərilərinə doğru uzanan Abşeron yarımadası aydın görünür. ***Yarımada*** bir tərəfi quruya birləşmiş, üç tərəfdən su ilə əhatə olunan quru sahəsinə deyilir. Respublikamızın paytaxtı Bakı şəhəri Abşeron yarımadasında yerləşir.


Neft Daşları

Xəzərdə çoxlu kiçik adalar var. Pirallahı Xəzərin ən böyük adasıdır. Orada qəsəbə salınmış, adanı Abşeron yarımadası ilə birləşdirən körpü tikilmişdir.

Xəzərdə neft yataqlarının aşkar edilməsi ilə bağlı olaraq Azərbaycan inşaatçıları polad dirəklər «Neft Daşları» şəhərciyini salmışlar. Bu, dünyada ilk belə qəsəbədir.

**Xəzərin canlılar aləmi.** Xəzərin özünəməxsus canlılar aləmi var. Burada nərə, kütüm, siyənək, xanı, kilkə və başqa növ balıqlar yaşayır. Xəzərdə nərəkimilərin qiymətli növləri yayılmışdır. Bu balıqların kürüsü çox faydalı qida hesab olunur.



*Nərə balığı*



*Kütüm*

Xəzərin sahillərindəki qayalıqlar qağayıların məskənidir. Burada başqa su quşları da yaşayır. Onlar xırda balıqlarla, sahil bitkiləri ilə qidalanırlar. Xəzərin sularında müxtəlif növ balıqlar və dəniz məməlisi olan Xəzər suitisi yaşayır.



*Qağayı*



*Xəzər suitisi*

**Xəzərin qorunması.** Kür, Samur çayları Xəzər dənizinə tökülür. Xəzərə tökülən ən böyük çay isə Volqa çayıdır. Volqa və Kür çayları özləri ilə şəhərlərin, zavod və fabriklərin çirkab sularını gətirib Xəzərə tökür. Bakı şəhərinin kanalizasiya suları da Xəzəri çirkləndirir. Xəzərdən neft də çıxarılır. Bu zaman dənizin sularına xeyli neft qarışır. Suyun neftlə çirklənməsi nəticəsində dənizin canlılar aləmi ziyan çəkir. Buna görə də Xəzərin canlılar aləmi Azərbaycan dövləti tərəfindən yaradılmış Abşeron Milli Parkında mühafizə olunur.

Xəzərin Azərbaycan və bütün sahil ölkələri üçün böyük əhəmiyyəti vardır. Bu ölkələrin hamısı onu qorumağa çalışmalıdır. Əgər qorunmasa, dənizin suları çirklənməkdə davam edər. Orada yaşayan canlılar artıq bu sularda yaşaya bilməyib məhv olar və Xəzər ölü dənizə çevrilər.

***«Ölü dəniz» ifadəsini izah et.***

1. ***Xəzərin ölkəmiz üçün faydalarını şərh et.***
2. ***Neft Daşlarını nə üçün «Möcüzələr adası» adlandırırlar? İzah et.***
3. ***Xəzər nə üçün ölü dənizə çevrilə bilər? Fikrini əsaslandır.***
4. ***Xəzərin çirklənməsinin qarşısını almaq üçün sən nə təklif edərdin? Fikirlərini yaz.***



## 34. BOL NEMƏTLİ YURDUMUZ



***Azərbaycanın iqlimi hansı kənd təsərrüfatı bitkilərinin yetişməsi üçün əlverişlidir? Təbii ki, sən bir çox bitkinin adını çəkəcəksən.***

***Azərbaycanın başqa sərvətləri də var, bunlar hansılardır? Mətni oxusan, bilmədiklərini öyrənər, unudulanları isə əlavə edə bilərsən.***

**«Günəşli Azərbaycan».** Dünyada çoxlu ölkələr var. Bu ölkələrin bəzilərində münbit torpaqlar, bəzilərində bol günəş işığı azdır. Elə ölkələr də var ki, orada yağış, qar yağması nadir hadisədir. Azərbaycanda isə bütün fəsillər gözəl olur. Yazda bərəkətli yağışlar yağır. Yayda torpaqlarımıza bol günəş işığı düşür. Elə buna görə də respublikamıza «Günəşli Azərbaycan» deyirlər. Yurdumuzda min bir nemət yetirən münbit torpaqlar var. Təbiət doğma Azərbaycanımızdan heç nəyi əsirgəməyib.

**Kənd təsərrüfatı bitkiləri.** Azərbaycanda buğda, arpa, çovdar, pambıq, üzüm, çay, limon, zeytun, çəltik kimi bitkilər yaxşı inkişaf edir. Geniş taxıl zəmilərində ildə iki dəfə – yazda və payızda taxıl əkilir.

Azərbaycanın bəzi rayonlarında pambıqçılıq, bəzilərində də üzümçülük üçün əlverişli şərait vardır. Lənkəranın çay plantasiyalarında yetişdirilən ətirli Azərbaycan çayı süfrələri bəzəyir. Çayın ayrılmaz dostu olan şəkərin hazırlandığı şəkər çuğunduru da, ona xüsusi dad verən limon da respublikamızda yetişir. Quba alması, Göyçay narı ilə məşhurdur. Gədəbəydə çox keyfiyyətli kartof yetişir. Bu nemətlərin əsas mənbəyi torpaqdır. Biz torpağın qayğısını çəkməliyik. Qayğı göstərməsək, torpaqlarımız səhraya çevrilər. Məhsuldarlıq aşağı düşər. Azərbaycan dövləti torpaqlardan istifadəyə və onların mühafizəsinə də nəzarət edir. Bunun üçün «Torpaqların münbitliyi haqqında» Qanun qəbul edilmişdir.



***Torpağın çirklənməsinə səbəb olan amillər hansılardır?***



*Sünbül və buğda*



*Üzüm bağı*



*Pambıq tarlası*



*Çay plantasiyası*

**Heyvandarlıq təsərrüfatları.** Ölkəmizdə müxtəlif heyvandarlıq məhsulları da istehsal olunur. Quşçuluq təsərrüfatlarında toyuq əti və yumurta, qoyunçuluq fermalarında ət məhsulları, yun istehsal olunur. Heyvandarlıq təsərrüfatları daim genişlənir. İri buynuzlu mal-qara bəslənən təsərrüfatların sayı ildən-ilə artır. Azərbaycanın südü, qatığı, qaymağı, kəsmiyi, bir sözlə, bütün süd məhsulları çox ləzzətlidir. Bir çox bölgələrimizdə balıqçılıq təsərrüfatları fəaliyyət göstərir. Burada süni yaradılan göllərdə balıqlar yetişdirilir.

Azərbaycanda arıçılıq və baramaçılıq təsərrüfatları da geniş yayılmışdır.

**Yeraltı sərvətlərimiz.** Ölkəmizin çoxlu yeraltı sərvətləri də vardır. Yeraltı sərvətlər dedikdə, ilk növbədə, neftin və təbii qazın adını çəkməliyik. Çünki Azərbaycana ən çox şöhrət gətirən yeraltı sərvəti onun neftidir. Lap qədim zamanlardan Azərbaycan neft diyarı kimi tanınır. Respublikamızda həm quruda, həm də dənizdə zəngin neft və təbii qaz yataqları var.

Azərbaycanda qiymətli metalların zəngin ehtiyatı var. Qızıl, mis, alüminium, civə, dəmir belə sərvətlərdəndir. Daşkəsən yatağından çıxarılan ***filizdən**** cürbəcür metallar əldə edilir.



mis alüminium dəmir qızıl

*Faydalı qazıntılar*

Azərbaycanda şəfalı su yataqları da vardır. Kəlbəcərdə, Naxçıvanda, Şuşada, Dəvəçidə çıxan bulaq suları müalicə əhəmiyyətlidir. Abşeron göllərinin duzu,

* **Filiz** – tərkibində metal və onun birləşmələri olan faydalı qazıntı



*Abşeronun sərvətləri: 1.Palçıq vulkanı; 2. Duz gölü;*
*3. Yanardağ – yerdən çıxan təbii qaz*



*Duz mağarası.*
*Naxçıvan*



Palçıq vulkanlarının sayına görə respublikamızın ərazisi dünyada birinci yeri tutur. Vulkanların gili, palçığı və həmçinin buradan əldə edilən su bir çox xəstəlikləri müalicə etmək gücünə malikdir.

Naftalanın nefti, Naxçıvanın duz mağarası müalicəvi xüsusiyyətləri ilə məşhurdur.

Münbit torpaqları, yeraltı və yerüstü sərvətləri Azərbaycanın güclü bir ölkə olmasına, dövlətimizin daha da möhkəmlənməsinə kömək edir. Azərbaycanın təbii sərvətlərini qorumaq üçün xüsusi dövlət orqanı yaradılmışdır. Həmin dövlət orqanı Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyidir.



***Yeraltı sərvətlərin respublikamız üçün əhəmiyyətini izah et.***



1. ***Azərbaycanda hansı kənd təsərrüfatı bitkiləri yetişdirilir? Bu bitkilərin adlarını söylə.***
2. ***Respublikamızda olan heyvandarlıq sahələrinə aid nümunələr göstər.***
3. ***Azərbaycan dövləti torpaqların mühafizəsi üçün hansı işləri görür?***
4. ***Azərbaycana ən çox şöhrət gətirən hansı faydalı qazıntılardır?***
5. ***Azərbaycanda müalicə əhəmiyyətli sulardan hansılarını tanıyırsan? Dəftərində «Azərbaycanın mineral suları» adlı cədvəl çək və işlə.***

| **Bölgə** | **Suyun adı** |
|---|---|
| *Naxçıvan* | *Sirab* |
| | |

6. ***Yeraltı və yerüstü sərvətlərin əhəmiyyəti və onların qorunmasının vacibliyi haqqında fikirlərini yaz.***

# Dəyərlər


35. İnsan və cəmiyyət
36. Bayramlarımız
37. Qayda və qanun
38. Yarımçıq qalmış tikmə
39. Mədəni irsimizi qoruyaq
40. Dünya dinləri
41. Ailə büdcəsi
42. Xalqlarn ünsiyyət qaydaları
43. Yay tapşırıqları




# 35. İNSAN VƏ CƏMİYYƏT



***İnsanlar bir-birinə necə ehtiyac duyurlar? Onların toplum halında yaşamasının üstün cəhətləri nədir?***

**Cəmiyyət necə yaranır?** Bir şəxs insan ayağı dəyməyən bir adaya düşsə, çox çətinliklə də olsa, tək yaşaya bilər. Amma o bir müddət sonra yaşlanacaq. Həyatını davam etdirmək üçün ona kömək lazım olacaq. Yanında ailəsi, qohumları, qonşuları və başqa xeyirxah insanlar olmadan ona bu köməyi kim edə bilər? Əlbəttə, heç kim! İnsanlar cəm halında yaşayanda isə insan belə çətinlik qarşısında qalmır.

Həyatı boyunca hər bir insan müxtəlif peşə sahiblərinin əməyinə ehtiyac duyur. Biz təhsil almaq üçün müəllimə, sağlam olmaq üçün həkimə, saçlarımızı qaydaya salmaq üçün bərbərə müraciət etməli oluruq. Çünki bir insan eyni zamanda həkim, müəllim, mühəndis, bərbər, əsgər və s. ola bilməz. Bir-birinə olan ehtiyac irqindən, milli mənsubiyyətindən, cinsindən, dinindən, dilindən asılı olmayaraq insanları yaxınlaşdırır. Cəmiyyət belə yaranır. Başqa sözlə desək, cəmiyyət cəm halında yaşayan və bir-birinə ehtiyacı olan insanların yaratdığı birlikdir.



***İnsan hüquqlarını qorumaq, səncə, nə üçün vacibdir?***

Cəmiyyətin inkişafı insanların inkişafı ilə sıx əlaqədədir. Bir cəmiyyətdə yaşayan insanlar müxtəlif münasibətlərlə bir-birinə bağlı olurlar. Onlar biliklərini bir-birinə ötürür, elmi, mədəniyyəti bu yolla inkişaf et-



*Cəmiyyət üzvləri*

dirirlər. Təbii sərvətlərdən ölkənin inkişafı üçün istifadə edən də, bu sərvətləri qoruyan da insandır. Ona görə də vətəndaşları sağlam, təhsilli, qabiliyyətli olan ölkə sürətlə inkişaf edir.

**Ailə və cəmiyyət.** Cəmiyyətin üzvləri ailələrdə yaşayırlar. Cəmiyyətin gələcəyi olan uşaqlar ailələrdə yetişir. Hər bir uşağın ailədə yaşamaq hüququ vardır.

Ailə müqəddəsdir. Sağlam ailə sağlam cəmiyyət deməkdir. Ona görə də dövlət ailəni qorumağa, onu firavan yaşatmağa çalışır.

***«Sağlam ailə sağlam cəmiyyət deməkdir» ifadəsini izah et.***



Azərbaycanda insan hüquqlarını qoruyan dövlət təşkilatlarından biri də Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsidir. Bu təşkilatın əsas fəaliyyəti uşaq və qadın hüquqlarının müdafiəsinə yönəlmişdir. Uşaqlara qayğı onların hüquqlarının müdafiəsindən başlayır. Uşaqların sağlam olmaq, təhsil almaq, müdafiə olunmaq, cəmiyyətin həyatında iştirak etmək kimi hüquqları dövlət tərəfindən qorunur.



*Heydər Əliyev Mərkəzinin parkında uşaqlar üçün idman dərsi*

1. ***Təhsil hüququ yalnız uşaqlaramı aiddir? Nə üçün belə hesab edirsən?***
2. ***Cəmiyyətin inkişafında dövlətin rolu nədən ibarətdir? Fikrini faktlarla izah et.***
3. ***Sən cəmiyyətə necə xeyir verə bilərsən? Fikrini əsaslandır.***



# 36. BAYRAMLARIMIZ



***Hansı bayramlarımız var? Bu bayramlar necə yaranmışdır? Yəqin ki, bu haqda artıq müəyyən məlumatın var. Bu mətni oxusan, məlumatlarını bir qədər də artıra bilərsən.***

Bayramlarımız və əlamətdar günlərimiz bir xalq və müstəqil respublika kimi var olmağımızın göstəricisidir. Elə bayramlarımız var ki, bunlar bizim milli dəyərlərimizdir.

Azərbaycan xalqının ən çox sevdiyi milli bayram Novruz bayramıdır. Novruz bayramını biz 20–21 martda qeyd edirik. Bu bayramın tarixi Azərbaycan xalqının tarixi qədər qədimdir.



*Novruz adətləri*



*Müharibə veteranları ilə görüşdə*

Yazın gəlişi, torpağın oyanması ilə bağlı olan bu bayramda səməni göyərdilir. Novruzda yumurta boyamaq, su üstündən tullanmaq, tonqal qalamaq, oddan atılmaq və başqa adətlər yüz illərdir ki, unudulmur. Novruz mehribanlıq, bərəkət bayramıdır.

Hər il 9 mayda sinfimizin uşaqları müharibə veteranları ilə görüşür, onları təbrik edirlər. Bu artıq ənənə halını almışdır. 1-ci sinifdən başlayaraq biz 9 May – Faşizm üzərində Qələbə Gününü belə qeyd edirik.

28 May Azərbaycan Respublikasının əziz bayramıdır. Çünki 1918-ci ilin həmin günündə Azərbaycan Demokratik Respublikası öz varlığını dünyaya bəyan etmişdir. Respublikamızın yaşı da həmin ildən hesablanır.



***9 Mayda nə üçün müharibə veteranlarını xüsusi təbrik edirlər?***



*Hərbi parad*



*Azərbaycan Respublikasının Dövlət Bayrağı meydanı*

15 İyun – Azərbaycan Milli Qurtuluş Günü, 26 İyun – Azərbaycan Respublikası Silahlı Qüvvələri Günü də bizim üçün çox önəmlidir. Çünki onların ikisi də müstəqilliyimizin qorunması ilə bağlı olan bayramlardır.

9 Noyabr – Azərbaycan Respublikasının Dövlət Bayrağı Günüdür. Azərbaycan dövlətinin rəmzi olan üçrəngli milli bayrağımızın təsdiq edildiyi gündür.

31 Dekabr – Dünya Azərbaycanlılarının Həmrəyliyi Günüdür. Bu güm ümummilli liderimiz Heydər Əliyevin təşəbbüsü ilə bayram elan olunmuşdur. O çox istəyirdi ki, bütün dünyada yaşayan azərbaycanlılar Azərbaycanın mənafeyi naminə birləşsinlər. Bunlardan başqa, ölkəmizdə 8 Mart Beynəlxalq Qadınlar Günü qeyd olunur. Həmin gün ölkəmizin hər yerində qadınlara həsr olunmuş tədbirlər keçirilir.

Mömin müsəlmanların çox sevdikləri müqəddəs Ramazan və Qurban bayramları Azərbaycanda da qeyd edilir. Bayram günləri idarələrdə, sənaye müəssisələrində iş günü hesab olunmur. Bayramda məktəblərdə dərs də olmur.

Biz 18 Oktyabrda Azərbaycanın Dövlət Müstəqilliyi Gününü, 12 Noyabrda Azərbaycan Respublikasının Konstitusiyası Gününü, 17 Noyabrda Milli Dirçəliş Gününü də qeyd edirik. Bunlar əlamətdar günlərdir. Bayram günlərindən fərqli olaraq, əlamətdar günlər iş günləridir.



1. ***Azərbaycanda hansı əlamətdar günlər qeyd olunur? Bildiyin əlamətdar günləri sadala.***
2. ***Bayramlarla əlamətdar günlərin oxşar və fərqli cəhətlərini göstər.***
3. ***Şəkil 4 üzrə Azərbaycan Respublikasının Dövlət Bayrağı meydanının əzəmətini təsvir edən esse yaz.***

# 37. QAYDA VƏ QANUN




*Salam, müəllim!*

Müəllimimiz sinfə daxil olanda hamımız ayağa qalxırıq. Bu, məktəb qaydalarından biridir. Uşaqlardan heç biri bu qaydanı pozmur. Çünki böyüklər gələndə ayağa qalxmaq hörmət və ehtiram əlamətidir.



***Biz məktəbdə, evdə, həyətdə və digər yerlərdə bir çox qaydalara əməl edirik. Qaydalara əməl etməyin bizə nə xeyri var? Bəs qanun nədir? Bu suallara cavab tapmaq üçün isə aşağıdakı mətni oxuya bilərsən.***

**Qaydalara əməl etməyin əhəmiyyəti.** Biz məktəbdə məktəb qaydalarına, yolda yol hərəkəti qaydalarına əməl edirik. Kitabxanada da qaydalar var. Marketdə, idman və oyun zalında da müəyyən qaydalar olur. Ümumi qaydalardan başqa, hər bir məktəbin, hətta sinfin öz qaydaları olur. Müəllimlərin də əməl etməli olduğu qaydalar var. Şagirdlər də, müəllimlər də bu qaydalara əməl etməyə borcludurlar.

Qaydaları insanlar özləri yaradır, özləri də dəyişirlər. Qaydalar insanların həyatını asanlaşdırır. Məsələn, məktəb qaydalarına əməl olunması nizam-intizamı qoruyur. Nizam-intizam şagirdlərin yaxşı oxumasına kömək edir. Evdəki qaydalara əməl etmək ailə ənənələrini qorumaq deməkdir. Ümumi həyətdə qoyulmuş qaydalara əməl edəndə həyətdə səliqə-sahman yaratmaq asan olur.

Qaydalara əməl olunması insanlar arasındakı münasibətlərə də təsir göstərir. Evdəki qaydalara əməl etmək ailə üzvləri arasında qarşılıqlı hörməti və səmimiyyəti qorumağa kömək edir. Qaydaları pozmayan insanlara bütün qonşular hörmət edirlər. Qaydalara məhəl qoymayanların hərəkətləri isə ətrafdakı insanların narazılığına səbəb olur. Ona görə də özünə və ətrafındakılara hörmət edən insanlar qaydaları

heç vaxt pozmurlar. Onlar yaşadıqları, işlədikləri və təhsil aldıqları yerlərdə qoyulmuş qaydalara əməl edirlər. Qaydalara əməl etmək üçün insan olduğu hər yerdə olan qaydaları diqqətlə öyrənməlidir. Qaydalara əməl etmək azdır, bu qaydaları pozanların hərəkətlərinə münasibət bildirmək, qaydanı pozduqlarını onların nəzərinə çatdırmaq da lazımdır.



*Buyurun əyləşin*

**Qanunlar.** İnsanların həyatında qanunların da böyük rolu var. Qanunlar cəmiyyətə və onun bütün üzvlərinə aid olur. Yaşından, vəzifəsindən asılı olmayaraq hamı qanuna əməl edir. Çünki qanunlar dövlət tərəfindən qəbul edilir. Bu qanunları yaratmaqda dövlətin məqsədi insanların həyatını asanlaşdırmaq və onların hüquqlarını qorumaqdır. Məsələn, «Təhsil haqqında», «Əhalinin sağlamlığının qorunması haqqında», «Mədəniyyət haqqında», «Uşaq hüquqları haqqında» və başqa qanunlar Azərbaycan vətəndaşlarının rahat yaşaması üçün qəbul edilmişdir. Qanunlarda insanların hüquqları da öz əksini tapır.

Dövlətin qəbul etdiyi qanunları heç kim dəyişə bilməz. Qanunda yalnız dövlət tərəfindən dəyişiklik edilir.

Qanunu pozanlar məhkəməyə verilir və cəzalandırılır. Onlar məhkəmənin qərarı ilə cərimə, hətta həbs də oluna bilərlər.

***Qanunların həyatımız üçün əhəmiyyəti nədir?***



***1. Məktəbinizin qaydalarını sadala. Bu qaydaları nə üçün pozmaq olmaz? Əsaslandır.***

***2. Dəftərində «Qaydalar» adlı cədvəl çəkib işlə.***

| ***kitabxanada*** | ***idman zalında*** | ***marketdə*** |
|---|---|---|
| | | |



***3. Qanunu pozmağın hansı nəticələri olur? Nəticələri qeyd et.***

***4. Qayda və qanunu Venn diaqramında müqayisə et.***



## 38. YARIMÇIQ QALMIŞ TİKMƏ



***Müharibədə insanlar yaxınlarını, doğmalarını itirirlər. Tarixi abidələr, sənət əsərləri məhv edilir. Müharibə insanların qəlbinə yara vurur. Aşağıdakı hekayədə Qarabağ müharibəsinin insanlarımızın qəlbinə vurduğu ağır yaradan söz açılır.***

Məktəbimizdə şagirdlərin əl işlərinin sərgisini təşkil etmişdik. Başqa məktəblərdən qonaqlarımız da gəlmişdi. Sərgidə nümayiş etdirilən əl işləri hamının xoşuna gəldi. Qızlarımızın tikdiyi tikmələri, oğlanlarımızın taxta üzərində oyma işlərini qonaqlar çox bəyəndilər.

Qonaq qızlardan biri sinif yoldaşımız Lalənin sərgiyə qoyduğu tikməyə diqqətlə baxırdı. Rəfiqələri ondan xeyli aralanmışdılar. Qız isə gözlərini tikmədən çəkə bilmirdi. Ona yaxınlaşdıq. Gözləri dolmuşdu. Biz onunla tanış olduq. Öyrəndik ki, adı Şəmsdir. Ondan nə üçün ağladığını soruşduq. O bizə öz anası haqqında kədərli əhvalat danışdı. Dəhşətli Xocalı soyqırımı vaxtı Şəmsin anasının 12 yaşı varmış. O, tikmə tikməyi sevir, çox gözəl naxışlar vurmağı bacarırmış. Bir axşam o yenə tikmə tikəndə səs-küy qopur. Göydə işıq saçan güllələr vıyıldayır. Bütün ailə üzvləri evdən çıxaraq vahimə içərisində qaçan insanlara qoşulurlar. Onlar soyuq qış gecəsində qarlı meşə ilə güllə yağışı altında qaçırlar. Həmin gecə çoxlu



*Məktəb sərgisində*

insan həlak olur. Bəziləri güclə qaçıb canlarını qurtara bilirlər. O dəhşətli gecədə Şəmsin anası valideynlərini və bacı-qardaşlarını itirir. Özü güclə xilas olub Bakıda Uşaq evlərindən birinə yerləşdirilir.

Sərgidəki uşaqların bir çoxu onun ətrafına toplaşıb sakitcə qulaq asırdılar. Şəms dedi ki, həmin yarımçıq tikmə indi də evlərindədir. Ondan çox xoşu gəlir. Naxışları eynilə bu tikmədəki kimidir. Ancaq üstündən xeyli vaxt keçsə də, tikmə hələ də yarımçıqdır. Anası deyir ki, mən çox istəyirəm bu tikməni başa çatdırım, ancaq bacarmıram. Onu əlimə alan kimi o dəhşətli gecə xəyalımda canlanır.

Şəmsin danışdığı əhvalat hamımıza təsir etdi.

Sərgi yaxşı keçdi. Bəzi nümunələri məktəblilərin əl işlərindən ibarət respublika sərgisinə göndərmək qərara alındı. Sərgidən sonra qonaqlarımızı məktəbin akt zalına dəvət etdik. Məktəbimizin direktoru, müəllimlər çıxış etdilər. Qonaqlardan da danışanlar oldu. Şagirdlərimizi belə gözəl işlər gördüklərinə görə alqışladılar. Lalə də söz istəyib səhnəyə çıxdı. O, tikməsini əlində gətirmişdi. Üzünü zalda oturanlara tutub dedi:

– Bu tikməni mən tikmişəm. Bayaq Şəmsin danışdığı əhvalatı eşitdim. Onun xoşladığı naxışlar burada tamamlanıb. Əgər qəbul edirsə, bunu ona bağışlamaq istəyirəm. İstəyirsə, ona tikməni də öyrədərəm. Mən istəyirəm ki, o, anasının yarımçıq qalmış tikməsini başa çatdırsın.

Şəms səhnəyə qalxıb öz təşəkkürünü bildirdi. Tikməni aldı və dedi ki, bu onun üçün çox qiymətli hədiyyədir. Əgər Lalə ona tikməni öyrətsə, çox minnətdar olar.

Hamı əl çaldı. Tədbirin sonunda müəllimimiz çıxış etdi. O dedi:

– Uşaqların bir-birinin dərdinə şərik olması biz böyükləri çox sevindirir. Sizin bu hərəkətiniz sübut edir ki, çətin zamanlarda həmişə bir-birinizə arxa olacaqsınız. Soydaşlar bir-birinə dəstək verməli, valideynlərin başladığı bütün yarım qalan yaxşı işləri başa çatdırmalıdırlar. Əgər gənclərimiz belə olmasa, biz qalib gələ, torpaqlarımızı işğaldan azad edə bilmərik.



Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 26 fevral «Xocalı soyqırımı və milli matəm günü» elan olunmuşdur.

Şəhidlərimiz bizim and yerimizdir. Şəhidlərimizin xatirəsini həmişə uca tutacağıq.



1. ***Şəmsin anası tikməni nə üçün tamamlaya bilmirdi? Fikirlərini yoldaşlarınla bölüş.***
2. ***Lalə tikməsini nə üçün Şəmsə bağışladı? Fikrini izah et.***
3. ***Mətndə təsvir olunan uşaqların mənəvi keyfiyyətlərini qiymətləndir.***

## 39. MƏDƏNİ İRSİMİZİ QORUYAQ



***«Dəyərlər» deyəndə nələr nəzərdə tutulur? Dəyərləri qorumaq nə üçün vacibdir? Onları necə qorumaq olar? Bu suallara cavab tapmaq üçün mətni diqqətlə oxumaq lazımdır.***

**Sonanın qərarı.** Görkəmli Azərbaycan yazıçısı Mir Cəlal Paşayevin Bahar adlı bir gəncin həyatından bəhs edən maraqlı bir əsəri vardır. Əsərdə göstərilir ki, Sona adlı bir qadın pulsuzluq üzündən öz əlləri ilə toxuduğu sevimli xalçasını satmaq qərarına gəlir. Onu büküb bazara aparır. Bazarda hamı xalçanın gözəlliyinə valeh olur. Həmin vaxt bazarda bir əcnəbinin də gözü xalçanı tutur. O, Sonanın istədiyi on qızılı verib xalçanı almaq istəyir. Sona əvvəlcə razılaşır. Amma sonra bir anlığa öz sevimli xalçasını uzaq ölkədə, yad bir evdə təsəvvür edir. Daxilindən gələn bir səs sanki onu ayıldır. Bu səs ona deyir ki, sənin bu qədər dəyər verdiyin xalça yad eldə, özgə əlində olmamalıdır. Bunu düşünəndə əcnəbinin verdiyi on qızıl Sonanın gözündən düşür. O «satmıram» deyib, xalçanı yığışdırır.



***Sona xalçasını nə üçün satmadı?***

Əcnəbi xalça üçün verəcəyi pulu on beş qızıla, hətta yüz qızıla qaldırır. Amma Sona xalçanı satmaqdan imtina edir. Sona nə üçün belə etdi? Axı o, pula ehtiyacı olan yoxsul bir qadın idi. Sona dərk etdi ki, bu xalçanı əcnəbiyə satmaq olmaz. Çünki bu xalça təkcə onun deyil, Azərbaycan xalqının sərvətidir.



*«Bahar nəğməsi». Rəssam Səttar Bəhlulzadə*



*«Dörd fəsil». Təbriz xalçası*



*Möminə xatun türbəsi*



*«Üçlük»: tar, kamança və dəf*

**Milli-mədəni irsimiz qürur mənbəyimizdir.** Azərbaycanın zəngin şifahi xalq ədəbiyyatı, muğam sənəti, memarlıq abidələri, dəyərli rəsm və musiqi əsərləri var. Bütün bunlar xalqımızın milli-mədəni irsidir. Mədəni irsi hər bir xalqın sərvəti sayılır. Əgər xalq bu sərvəti qorumursa, onu başqaları mənimsəyir.

Azərbaycan dövləti xalqımızın mədəni irsinin qorunmasına çalışır və bunun üçün tədbirlər görür. Bu tədbirlər sayəsində Azərbaycanın mədəni irsi bütün dünyada təbliğ olunur. Xalqımızın muğam və aşıq sənəti, Novruz bayramı, xalça sənəti dünya irsi siyahısına salınmışdır. Bu o deməkdir ki, bütün dünyada bu sənətlərin Azərbaycan xalqına aid olmasını təsdiq etmişlər. Artıq heç bir başqa xalq onları öz adına çıxa bilməz. Respublikamızdakı tarixi abidələr dövlət tərəfindən qorunur.

***Azərbaycanın muğam və aşıq sənətinin, Novruz bayramının, xalça sənətinin dünya irsi siyahısına salınmasının əhəmiyyəti barədə danış.***



Milli-mədəni irsin qorunması yalnız dövlətin işi deyil. Bu işdə adi vətəndaşlar da yaxından iştirak etməlidirlər. Çünki dəyərlərin qorunması ümumxalq işidir. Xalqın mədəni sərvətini qorumaq, onu təbliğ etmək həmin dövlətin vətəndaşı olan hər bir şəxsin mənəvi borcudur.

Hər bir xalq özünə məxsus olan dəyərləri qorumalı və gələcəyə aparmalıdır. Bu ona görə lazımdır ki, gələcək nəsillər ata-babalarının kimliyini və nələrə qadir olduğunu bilsinlər. Çünki zəngin milli-mədəni irs hər bir xalqın qürur mənbəyidir.

***1. Sən nələri xalqın mənəvi sərvəti hesab edirsən? Sadala. Onları hansı xüsusiyyətlərinə görə dəyərli hesab etdiyini əsaslandır.***
***2. Dəyərlərə laqeyd münasibəti xalqa xəyanət kimi qiymətləndirmək olarmı? Fikrini yoldaşlarınla bölüş.***
***3. Venn diaqramında maddi və mənəvi dəyərləri müqayisə et.***



# 40. DÜNYA DİNLƏRİ



***Müasir dövrdə geniş yayılmış dinlər hansılardır? Onlar bir-birindən nə ilə fərqlənir? Bəs onları yaxınlaşdıran nədir? Bunları bilmək istəyirsənsə, mətni oxu.***

***Allahın bir olduğunu qəbul edən dinlər hansılardır?***

**Təkallahlı dinlərin yaranması.** Çox qədim zamanlarda insanlar düşünürdülər ki, təbiətdə və onların həyatında baş verən bütün hadisələri tanrı deyilən qüvvələr idarə edir. Onlar Günəşin, Ayın çıxmasını, yağışın yağmasını, küləyin əsməsini və başqa hadisələri bu tanrılarla bağlayırdılar. Məsələn, qədim yunanlar inanırdılar ki, Günəşi səmaya qaldıran Helios adlı tanrıdır. Dənizi isə Poseydon adlı tanrı idarə edir. O, qəzəblənəndə dənizdə fırtına qopur. Qədim yunanlar elə hesab edirdilər ki, müharibələr də müharibə tanrısının iradəsi ilə baş verir. Onlar bu tanrılara sitayiş edir, qurbanlar verirdilər.



Günəş tanrısı Helios



Dəniz tanrısı Poseydon

*Qədim Yunan tanrıları*

***Dinə etiqad etmək nə deməkdir?***

Zaman keçdikcə Yaradan haqqında təsəvvürlər dəyişdi. Təkallahlı dinlər meydana gəldi və insanlar bu dinləri qəbul etdilər. Əvvəlcə yəhudi, ardınca xristian, ən sonda isə islam dini yarandı. Bu dinlərin üçü də öyrədir ki, dünyamızda hər şey bir Allah tərəfindən yaradılıb və idarə olunur. Ona görə də bu dinlərə təkallahlı dinlər deyirlər.

**Peyğəmbərlər və səmavi kitablar.** Təkallahlı dinlərin hər birinin öz peyğəmbəri var. Yəhudi dininin peyğəmbəri Həzrəti Musa, xristianlığın peyğəmbəri Həzrəti İsa, islamın peyğəmbəri Həzrəti Məhəmməddir. Bu dinlərin hər birinin öz müqəddəs kitabı vardır. Allah tərəfindən göndərildiyi üçün bu kitablara səmavi kitablar deyirlər. «Zəbur», «Tövrat», «İncil» və «Qurani-Kərim» səmavi kitablardır.



«Tövrat» – yəhudi dininin müqəddəs kitabı



«İncil» – xristianlığın müqəddəs kitabı



«Qurani-Kərim» – islamın müqəddəs kitabı

*Səmavi kitablar*

**Dini dəyərlər.** Yəhudi, xristian və müsəlman dindarlar inanırlar ki, hər insan öz əməlinin bəhrəsini görür. İslam dininin müqəddəs kitabında yazılıb: «Yaxşılıq da etsəniz, özünüzə etmiş olursunuz, pislik də». Yaxud da «Doğru yol tutan yalnız özünə xeyir, haqq yoldan azan da ancaq özünə zərər edər».

Xristianlığın müqəddəs kitabında yazılıb: «İnsanların sizinlə necə davranmasını istəyirsinizsə, siz də onlarla elə davranın». «Yalnız yaxşı görünmək xatirinə yaxşılıq etməyin».

Yəhudiliyin müqəddəs kitabında da belə fikirlər var: «Hər kəs etdiyi əməlin əvəzini mütləq (mükafatını, yaxud cəzasını) alacaqdır».

**Zərdüştilik. Buddizm. İnduizm.** Dövrümüzdə təkallahlı dinlərdən əlavə başqa dinlərə etiqad edənlər də var. Uzaq keçmişdə Azərbaycanın ərazisində zərdüştilik adlanan din yayılmışdı. Bu dinə etiqad edən insanlar inanırdılar ki, onların həyatını iki qüvvə –Xeyir və Şər idarə edir. Bu qüvvələr arasında daim mübarizə gedir və sonda Xeyir həmişə Şərə qalib gəlir.

Buddizm adlanan təlim öyrədir ki, heç bir əməl qarşılıqsız qalmır. İnsan yaxşı əməlinə görə mükafat, pis əməlinə görə isə cəza alır. Ona görə də pislikdən çəkinmək, şərdən uzaqlaşmaq lazımdır. Bu fikir Hindistanda geniş yayılmış induizm dinində də var.

Haqqında danışdığımız dinlərin hamısı insanları dostluğa, böyüyə hörmət etməyə, zəiflərə, xəstələrə qarşı mərhəmətli olmağa çağırır. Bu da onların oxşar cəhətidir.



1. ***Təkallahlı dinləri birləşdirən cəhət nədir? İzah et.***
2. ***İslam, xristianlıq və yəhudi dinlərinin təbliğ etdiyi ortaq dəyərləri sadala.***
3. ***Dinlərin insanları paklığa, düzlüyə, xeyirə çağırdığına dair nümunələr göstər.***
4. ***Zərdüştilik, buddizm və induizm dinlərinin təkallahlı dinlərlə oxşar cəhətlərini şərh et.***

# 41. AİLƏ BÜDCƏSİ



***Ailə büdcəsi nədir? O necə formalaşır? Ailənin üzvləri bu işdə necə iştirak edirlər? Mətni diqqətlə oxu. Bu suallarla bağlı özün nəticə çıxara bilərsən.***

**Ailənin gəliri.** Hər bir ailənin öz büdcəsi olur. Bəs ailənin büdcəsi necə formalaşır? Ata, ana, nənə, baba və bir uşaqdan ibarət ailə götürək. Bu ailədə ata yazıçıdır. O, əsərlər yazır və nəşriyyata təqdim edir. Nəşriyyat bu əsərləri çap edib əvəzində ataya ***qonorar***, yəni zəhmət haqqı verir. Ana müəllimdir. Məktəbdə işləyir və aylıq ***maaş*** alır. Baba və nənə isə işləmirlər. Onlar ***əmək pensiyası*** alırlar. Oğlan universitet tələbəsidir. Yaxşı oxuyur və buna görə ***təqaüd*** alır. Evə gətirilən bu pullara ***ailənin gəliri*** deyilir. Bu ailədə hamının gətirdiyi pul bir yerə toplanıb ***ailənin büdcəsini*** yaradır.



***Ailə büdcəsi nədən asılıdır?***

**Ailə büdcəsinin düzgün xərclənməsi.** Ailə büdcəsinə toplanan pul ailənin ehtiyaclarına xərclənir. Ailənin başçısı bu xərclərin gəlirdən çox olmamasına çalışır. Çünki büdcəsində toplanmış vəsaiti düzgün xərcləyən ailə zəruri ehtiyaclarını tam ödəyir və borca düşmür. Bəs ailə büdcəsini düzgün xərcləmək nə deməkdir?

Elə ailələr var ki, gəlirləri az olsa da, öz tələbatlarını ödəyə bilirlər. Amma elə ailələr də var ki, ailə üzvlərinin hamısı qazanır, amma ailə yaxşı dolana bilmir. Bu niyə belə olur? Çünki birinci ailə xərclərinə qənaət edir. Yəni gündəlik ərzaqı lazım olandan artıq almır, evdə suyu, qazı, işığı boş-boşuna sərf etmir. İkinci ailə isə ərzaqı lazım olandan çox alır. Qazın, suyun, işığın işlənməsinə nəzarət etmir. Sonra artıq qalmış ərzaq köhnəlir və xarab olur. Bütün bunlara böyüklər nəzarət edir. Sən də böyüyüb ailə başçısı olanda, yəqin ki, gəlirini və xərcini düzgün böləcəksən. Bəs sən ailə büdcənizin artıq xərclərdən qorunması üçün indi nə edə bilərsən?



*Ailənin büdcəsi belə yaranır*

İlk növbədə nəzərə almalısan ki, boş yerə yanan qaz və elektrik cihazları, açıq qalan su kranı ailənin büdcəsinə çox ziyan vurur. Otaqdan çıxarkən işığı söndürmürsənsə və dişlərini fırçaladığın müddətdə suyu açıq qoyursansa,

yaxud əllərini yuyandan sonra kranı yaxşı bağlamırsansa, ailənizin büdcəsinə ziyan vurmuş olursan. Gündən-günə, aydan-aya artan bu ziyan ailə büdcənizin xeyli hissəsinin boş yerə xərclənməsi deməkdir. Bundan başqa, ailənin hər bir üzvünün özünəməxsus xərcləri olur. Hər bir ailə üzvü gərək öz xərclərini nəzarətdə saxlasın. Məsələn, sənin üçün alınmış məktəb ləvazimatından səliqəli istifadə etməlisən. Çünki səliqəsiz işlədilən hər şey tezliklə yararsız hala düşür. Onu yenisi ilə əvəz etdikdə isə əlavə pul xərcləmək lazım gəlir. Bu da ailə büdcənizə xeyli ziyan vurur.

**Yığım.** Ailədə xərclər gəlirə uyğun bölünərsə, ailə normal yaşayır. Hətta ailənin gəliri xərclərindən artıq da ola bilər. Gəlir xərcdən artıq olanda isə pul ehtiyatı yaranır. Buna yığım deyilir. Ailə yığımın hesabına daha yaxşı yaşaya bilər. Bu pulla daha geniş mənzil, avtomobil və başqa qiymətli əşyalar almaq, səyahət etmək olar. Yaxud ehtiyacı olanlara yardım etmək, xeyirxah işlər görmək də mümkündür.

***Azın qədrini bilməyən çoxa çatmaz.***







*Belə hallar ailənin büdcəsinə ziyan vurur.*

***1. Ailənin xərcləri onun gəlirini ötərsə, nə baş verər? Şərh et.***
***2. Mətnin sonunda verilmiş atalar sözünün mənasını izah edib dəftərində yaz.***
***3. Dəftərində ailənizin bir həftəlik ehtiyaclarını və onları ödəmək üçün lazım olan xərcləri əks etdirən cədvəl qur.***



## 42. XALQLARIN ÜNSİYYƏT QAYDALARI



***«Salam». Su kimi, çörək kimi bu sözü də hər gün işlədirik. Dünyanın hər yerində belədir. Sanki bunsuz keçinmək mümkün deyil. Hər xalqın öz salamlaşma qaydası var. Amma hamı salamlaşır. İnsanlar nə üçün salamlaşırlar? Bu nəyə lazımdır? Heç bu haqda düşünmüsənmi? Bu mətni oxusan, görəcəksən ki, bu mövzu ətrafında çox maraqlı axtarışlar aparmaq olar.***



*Salamlaşma*

Salamlaşmaq insanlar arasındakı münasibətləri möhkəmləndirən, onları bir-birinə sevdirən ədəb qaydalarından biridir. Salam verməklə insan qarşı tərəfə öz diqqətini, hörmət və sayğısını göstərir. Müsəlman ölkələrində, o cümlədən Azərbaycanda salam verərkən «salaməleyküm» cavabında isə «əs-səlamu əleyküm» deyirlər. Bunun da mənası «Allahın sülh və əmin-amanlığı üzərinizdə olsun» deməkdir. İslamın müqəddəs kitabı «Qurani-Kərim»də yazılıb ki, sizə salam verildiyi zaman onu daha gözəl şəkildə alın və ya eynilə sahibinə qaytarın!



Avropada və Amerikada



Yaponiyada



Hindistanda

*Salamlaşma formaları*

Dünya ölkələrinin əksəriyyətində salamlaşarkən «işlərin necədir», yaxud «necəsən» soruşurlar, cavabı «yaxşı» və ya «normal» olur, «pis» demək isə ədəbsizlik sayılır. Çünki belə cavab ünsiyyət zamanı xoş əhvali-ruhiyyə yaratmır.

Hindistanda salamlaşarkən əlləri cütləşdirib sinə qarşısında tuturlar.

Ərəblər əllərini sinələrinin üstünə qoyurlar. Əgər Avropa ölkələrində salamlaşma çox quru və qısadırsa, ərəb ölkələrində əksinədir. Bu ölkələrdə salamlaşma «Əhvalın necədir? İşlərin necə gedir?» və bunlara bənzəyən əlavə suallarla uzana bilər. Həmçinin kənar şəxslərin qadınlara müraciət etməsi və ya görüş üçün əl uzatması ədəbsizlik sayılır.



***Avropalıların və ərəblərin salamlaşma qaydalarında əsas fərq nədir?***

Çində əl sıxaraq görüşmək ən geniş yayılmış görüşmə qaydasıdır. Çinlilərdən fərqli olan yaponlar əl sıxaraq görüşməyi sevmirlər. Bunun əvəzinə bir-birlərinə baş əyirlər. Salamı almaq üçün həmin qaydada baş əymək lazımdır.

***Xalqların ünsiyyət qaydalarını öyrənmək nə üçün lazımdır?***



1973-cü ildən başlayaraq hər il noyabrın 21-i Beynəlxalq salamlaşma günü kimi qeyd olunur. Beynəlxalq salamlaşma gününün qaydalarına görə, həmin gün hər kəs qarşısına çıxan şəxsə onu tanıyıb-tanımamağından asılı olmayaraq salam verir.

***Beynəlxalq salamlaşma gününün əhəmiyyəti barədə fikirlərini şərh et.***





Dünyada iki yüzdən artıq ölkə və hər ölkənin də özünəməxsus adət-ənənələri var. Məsələn, Çində ədəb qaydalarına və adətlərə çox diqqət edirlər. Hədiyyə aparmaq istəsən, nəzərə al ki, ən kiçik ölçülü əşyanı belə iki əllə təqdim etmək lazımdır. Çinlilər, hətta vizit kartını* da hörmət əlaməti olaraq iki əllə təqdim edirlər.

Yaponlar çox qonaqpərvərdilər. Əgər onlar səni evlərinə dəvət etsələr, çalış gedəsən. Amma evə girəndə ayaqqabılarını çıxarmağı unutma. Yaponlar evə ayaqqabılı girməyi sevmirlər.

Hindistanda inək və meymunlar müqəddəs heyvanlar sayıldığı üçün onları incitmək qadağandır. Bu heyvanları incitsən, hindlilərin qəlbinə toxunmuş olarsan.

Tailandda insanın başına – «ruhun yerləşdiyi yerə» toxunmaq böyük təhqir hesab olunur.

Hər hansı ölkəyə səyahət edərkən orada insanların necə davranmalarına diqqət etmək vacibdir. Bu yolla həmin ölkələrin əhalisi üçün önəmli olan adət-ənənələri öyrənə bilərsən. Belə olan halda sən adətləri pozmaz və insanların rəğbətini qazanarsan. Çünki adət-ənənəsinə hörmət edilməsini hər bir xalq xoşlayır.

***1. Nə üçün bir çox ölkələrdə hal-əhval tutarkən «pisdir» deməyi ədəbsizlik sayırlar? Fikrini yoldaşlarınla bölüş.***
***2. Salamlaşmaq insanın əhvali-ruhiyyəsinə necə təsir göstərir? Fikrini nümunələrlə əsaslandır.***
***3. Hansı xalqın salamlaşma qaydası xoşuna gəldi? Nə üçün?***
***4. Azərbaycanda salamlaşma qaydalarını göstərən müxtəlif dialoqlar tərtib et.***



---

*** Vizit kartı** – şəxsin adı, soyadı, iş yeri, telefon nömrələri və başqa məlumatları yazılmış kart

## 43. YAY TAPŞIRIQLARI

Qarşıdan yay tətili gəlir. Hər kəs tətili harada keçirəcəyini, tətil vaxtı nə ilə məşğul olacağını indidən planlaşdırır. Vaxt çox qiymətlidir. Onu faydasız işlərə sərf etmək olmaz. Ona görə də harada olursansa, ol, çalış ki, tətil boyunca üçüncü sinifdə öyrəndiklərini müşahidələrinlə möhkəmləndirəsən. Bunun üçün yay tətili boyunca şəhərinizdə, kəndinizdə müşahidə apar. Gördüklərini yadda saxla, ondan nəticə çıxar.

Çöldə gəzərkən bitkilərə fikir ver. Onların gövdəsini, yarpaqlarını və köklərini nəzərdən keçir. Bitkilər haqqında öyrəndiklərini xatırla. Hansı bitkinin ot, hansının kol, hansının ağac olduğunu müəyyən et. ***Onlardan herbari**** düzəlt.



*Təbiətin qoynunda*




*Herbarinin hazırlanması*

Bağlarda, əkin yerlərində görülən işlərə fikir ver. Bitkilərin suvarılmasını, böyüməsini, çiçəkləməsini və meyvə əmələ gəlməsini diqqətlə izlə. Alaq otlarını böyüklərin köməyi ilə müəyyənləşdir. Alaq otlarını təmizlədikdə və herbari düzəltdikdə ehtiyatlı ol. Çünki elə bitkilər vardır ki, zəhərli olduğu üçün onlara toxunmaq olmaz.

Su hövzələrində yaşayan canlıları müşahidə et. Suda hansı bitkilərin bitdiyini öyrən. Su bitkilərinin quru bitkilərindən necə fərqləndiyini müşahidə et. Su bitkilərindən də herbari hazırlamağı unutma. Hansı bitkilərin çiçəkləri üzərində arıların olduğunu və onları necə tozlandırdığını müşahidə et. Həşəratların hansılarının zərərli olduğunu müəyyən etməyə çalış.

Gövdəsində bitən göbələklərin ağaca necə ziyan vurduğunu aydınlaşdır. Böyüklərin köməyi ilə yeməli və zəhərli göbələkləri ayırmağa çalış.

* **Herbari** – qurudulmuş bitki kolleksiyası

Səyahətə, gəzməyə gedərkən valideynlərinin, bələdçinin göstərişlərinə əməl et.

Başqa ölkələrdə insanların geyim və davranış tərzini, məişətini müşahidə et. Olduğun şəhərlərdə abidələr varsa, onların fotosunu çək. Muzeylərə, tarixi yerlərə getməyə çalış.



Yay aylarında mikroblar sürətlə çoxalır. Qarında ağrı, qusma, bəzən də yüksək temperaturla müşayiət olunan həzm sistemi xəstəlikləri artır. Ona görə də dənizdə, yaxud hovuzda çimərkən çalış ki, ağzına su dolmasın. Əgər dolarsa, bu suyu udma.

Yeyərkən meyvə-tərəvəzi yaxşı yu. Çünki yuyulmamış meyvə-tərəvəz insanlarda qurd xəstəliklərinin yaranmasına səbəb olur. Yuduqdan sonra qabığı soyula bilən meyvə-tərəvəzi soy. Yeməkdən əvvəl və sonra əllərini yu. Üzərinə milçəklər qonmuş qidaları yemə.

Yaddan çıxarma ki, yay fəslində ağcaqanadlar vasitəsilə keçən malyariya xəstəliyi yayıla bilər. Yayda ağcaqanad çox olur. Axşam saatlarında ağcaqanadlar xüsusilə fəallaşır. Belə vaxtlarda ağcaqanad sancmasından qorunmaq üçün qapı və pəncərələri qoruyucu torlarla örtülmüş otaqlarda olmaq məsləhətdir. Bayıra çıxarkən isə nazik uzunqol köynək və uzun şalvar geyinmək lazımdır.



Yay tətilində sən başqa ölkələrə səyahətə getsən, nəqliyyat növlərində də davranış qaydalarını öyrən. Avtomobil ən çox istifadə etdiyimiz nəqliyyat vasitəsidir. Avtomobildə sərnişinlərin təhlükəsizliyi üçün quraşdırılmış kəmərləri mütləq bağlamaq lazımdır.

Uzaq məsafələri tez qət etmək üçün isə təyyarə ən əlverişli nəqliyyatdır. Lakin sərnişinlərin təhlükəsizlik qaydalarına əməl etməməsi təyyarə qəzalarına səbəb ola bilər. Təyyarəyə minərkən mobil telefonları, digər bu tipli texniki vasitələri söndürmək lazımdır. Çünki uçuş müddətində bu vasitələrdən istifadə etmək təyyarə cihazlarının işinə mane ola bilər. Təyyarə havaya qalxmaq üçün hərəkətə gələrkən və enməyə başlayarkən ayaq üstə dayanmaq olmaz. Bu zaman sərnişin öz yerində əyləşməli və təhlükəsizlik kəmərini bağlamalıdır.

Gəmi səyahətləri də təhlükəsizlik qaydalarına əməl olunmasını tələb edir. Gəmidə göyərtənin kənarlarına yaxınlaşmaq təhlükəlidir. Sərnişinlər xilasedici gödəkcə və təhlükəsizlik kəmərindən istifadə qaydaları barədə təlimatları diqqətlə öyrənməlidirlər.

Qatarla səyahət edən sərnişinlər bilməlidirlər ki, minik başlanana qədər qatara yaxınlaşmaq olmaz. Hərəkət edən qatarda başını pəncərədən çıxarmaq da təhlükəlidir.



*Avtomobildə təhlükəsizlik kəməri*



a



b



*Təyyarədə istifadə olunan xilasedici gödəkcə*

*a) xilasedici dairə*
*b) xilasedici gödəkcə*

BURAXILIŞ MƏLUMATI

**HƏYAT BİLGİSİ 3**

*Ümumtəhsil məktəblərinin 3-cü sinfi üçün*
*Həyat bilgisi fənni üzrə*
**DƏRSLİK**

**Tərtibçi heyət:**

| | |
|---|---|
| Müəllif | **Gülər Ələkbər qızı Mehdiyeva** |
| Redaktor | **Aida Quliyeva** |
| Bədii və texniki redaktor | **Abdulla Ələkbərov** |
| Dizaynerlər | **Səbinə Məmmədova, Təhmasib Mehdiyev** |
| Rəssam | **Gündüz Ağayev** |
| Korrektor | **Ülkər Şahmuradova** |

*Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrif nömrəsi:*
2018-051

**© Azərbaycan Respublikası Təhsil Nazirliyi – 2018**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və
yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq,
elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 8,3. Fiziki çap vərəqi 12,0. Formatı 57x82 $^1/_8$.
Səhifə sayı 96. Ofset kağızı. Məktəb qarnituru. Ofset çapı.
Tiraj 150563. Pulsuz. Bakı—2018.

**«Aspoliqraf LTD» MMC**

Bakı, AZ 1052, F.Xoyski küç., 149

PULSUZ

**Əziz məktəbli!**

Bu dərslik sənə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir. O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sənə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, sən də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsan ki, növbəti dərs ilində digər məktəbli yoldaşın ondan sənin kimi rahat istifadə edə bilsin.

Sənə təhsildə uğurlar arzulayırıq!